# DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

*QEYD: Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 154 (6118) 5 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər



Bax 2

## Prezidentin köməkçisi Gəncədə din xadimləri ilə görüş keçirib



Gəncə şəhərindəki İmamzadə dini kompleksində bir qrup din xadimi ilə görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, ayrı-ayrı regionlardan olan din xadimləri, respublikanın müxtəlif məscidlərinin imamları iştirak edib. Görüşdə çıxış edən Anar Ələkbərov müstəqillik illərində dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşdığını, Azərbaycanda dövlət səviyyəsində dinə xüsusi diqqət göstərildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim bu sahəyə dəstək göstərir.

Bax 5

## "Ermənistan Qafqazda regionun inkişafına qarşı super dövlətlər tərəfindən yaradılmışdır"



## "Sər səng Su Anbarı ilə bağlı sənədin yerinə yetirilməsini tələb edirik"



"Çox təəssüf ki, Avropa Şurası Parlament Assambleyası üzərinə düşən öhdəlikləri yerinə yetirmir. AŞPA-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə sənəd də qəbul olunub. Amma bu sənədlərin hamısı, çox təəssüf ki, kağız üzərində qalıb. Bu sənədlərdən biri də Sərsəng Su Anbarı ilə bağlıdır...

Bax 13

## Məktəblər açılır, valideynlər isə narahatdır: uşaqları nə gözləyir?



Yeni tədris ilinin başlamasına artıq bir həftə qalıb. Valideynlər isə uşaqları məktəbə göndərib göndərməkdə tərəddüd edir. Bir tərəfdən virus həyəcan təbili çalır, digər tərəfdən isə uşaqlar məktəbə getməsə dərslərdən geri qalacaqlar...

Bax 6



Bax 16

## "Marca": "Messi "Barselona"da qalacaq"

Komandadan ayrılacağı gözlənilən "Barselona"nın kapitanı Lionel Messi Kataloniya klubunda qala bilər. SİA xəbər verir ki, bu barədə "Marca" məlumat yayıb. Argentinalı hücumçunun komandanı tərk etmək fikrindən...

## Nikol Paşinyan nəyə görə arvadını Azərbaycana atəş açmağa göndərib?



**Yayın son həftəsində Dağlıq Qarabağ münaqişəsi zonasında ən qəribə hadisələrdən biri baş verib: avqustun 25-dən 31-dək Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan başda olmaqla 15 erməni qadın...**

Bax 6

## "Demokratiya" zombiləri...



Bax 14

## Bağçaların tam fəaliyyəti bu tarixdən bərpa ediləcək



## Dünya hava yollarında sərnişin daşımaları tənəzzülə uğrayıb



Bax 16

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.***

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verdi. Bildirdi ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, 42 sinif otağı, 18 qrup otağı, 3 laboratoriya, kitabxana, kafe müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.

Bu korpuslarda server otaqları da mövcuddur. Server otaqlarından bütün tədris prosesləri dəstəklənir. Burada 42 otaqda smartkodlar quraşdırılıb, avadanlıqlar, kompüterlər var. Bu avadanlıqlar vasitəsilə tələbələr həm onlayn şəkildə təhsil ala biləcəklər, yəni, müəyyən mühazirələr videoformatda təqdim olunacaq, həm də canlı dərslər keçiriləcək.

Yeni istifadəyə verilən korpusların birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Təkcə bu korpusda 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2000 diplomat və dövlət qulluqçusu təlim keçib.

Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış oldular.












Ardı Səh. 3

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər

Əvvəli-Səh-4

Bildirildi ki, ümumi ərazisi 4 hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Burada 280 bitki növü əkilib. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Parkda göllər də yaradılıb.

Universitetin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verdi.

ADA Universitetinin perspektiv planlarına gəldikdə qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari il fevralın 19-22-də İtaliya Respublikasına rəsmi səfəri zamanı humanitar və təhsil sahəsində əməkdaşlıq barədə müzakirələr aparılıb, sənədlər imzalanıb. Razılaşdırılıb ki, Bakıda İtaliya-Azərbaycan Universiteti təsis olunsun və bu təhsil ocağının yaradılması ADA Universiteti ilə birlikdə həyata keçirilsin.







Universitetin inkişaf planına uyğun olaraq yeni təhsil ocağının istiqamətləri hazırlanmış konseptual sənədlərdə öz əksini tapıb. Yeni universitetdə Azərbaycanın iqtisadiyyatı üçün vacib olan elektrik mühəndisliyi, su təsərrüfatı mühəndisliyi, nəqliyyat mühəndisliyi, kənd təsərrüfatı və qida biznesinə aid sahələr, arxitektura və dizayn peşələri, menecment, marketinq və digər sahələr üzrə kadrlar hazırlanacaq. Beləliklə, ADA Universitetində təhsil infrastrukturunun modernləşdirilməsi konsepsiyası müasir trendləri əhatə etməklə gələcəyə istiqamətlənib.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2007-ci il 11 aprel tarixli 564 nömrəli, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 24 may tarixli 1420 nömrəli və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği"nin təsdiq edilməsi haqqında" 2018-ci il 29 mart tarixli 1901 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Şamil Ayrım: "Azərbaycan Prezidentinin Türkiyəyə dəstəyi qardaş həmrəyliyinin ən gözəl nümunəsidir"

Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstanın yeni səfirinin etimadnaməsini qəbul edərkən Şərqi Aralıq dənizində baş verən proseslər də daxil olmaqla hər mövzuda Türkiyəni dəstəklədiyini açıq şəkildə bəyan etdi, Ermənistan, Yunanıstan və Kipr arasındakı üçtərəfli hərbi əməkdaşlığın narahatlıq doğurduğunu bildirdi. Azərbaycanın Türkiyəni hər zaman dəstəklədiyi hər kəsə bəllidir. Bu münasibətlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyə arasında əsrlərboyu davam edən qardaşlıq bağlarının növbəti nümunəsidir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib. Şamil Ayrım deyib: "Dövlət başçısının həmin görüşdəki bəyanatı Türkiyə ilə Azərbaycan arasında möhkəm birliyi əks etdirən bir bəyanat idi. Bu, qardaş həmrəyliyinin ən gözəl nümunəsidir. Bunun üçün Prezident İlham Əliyevə Türkiyə xalqı adından dərin təşəkkürümü bildirirəm. Bütün dünyanın çətinliklərlə üzləşdiyi bu günlərdə biz sıx qardaşlıq bağlarını bir daha bütün dünyaya nümayiş etdirdik. Bu gün Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri dünya liderləri üçün bir nümunədir. Onlar həqiqətən də dünyaya qardaşlıq və birlik dərsi keçirlər. Azərbaycanla Türkiyə hər zaman tərəddüdsüz bir-birini dəstəkləyib və dəstəkləyəcək".

# Türkiyə PA: "Ankara hər zaman Bakının dəstəyini hiss edir"



Türkiyə hər zaman bütün sahələrdə Prezident İlham Əliyev başda olmaqla Azərbaycanın dəstəyini hiss edir. Bunu Türkiyə Prezident Administrasiyasından bildiriblər. Qeyd olunub ki, Azərbaycan dəfələrlə Türkiyəyə qardaşlıq münasibətini sübut edib: "Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətləri bütün türkdilli ölkələr üçün nümunədir. Azərbaycan hər zaman ədalət tərəfdarıdır". Administrasiyadan bildiriblər ki, Türkiyə də Azərbaycanla münasibətləri qiymətləndirir, bu münasibətlər hər iki qardaş ölkə üçün vacibdir: "Türkiyə ilə Azərbaycanın strateji münasibətləri kimsə qarşı deyil, regionda sülhə və sabitliyə yönəlib". Əlavə olunub ki, Türkiyə əvvəllər olduğu kimi Azərbaycanı bütün sahələrdə dəstəkləyəcək və tərəddüdsüz şəkildə onun maraqlarını qoruyacaq, çünki Bakının maraqları Ankaranın maraqlarıdır.

# Azərbaycan-Yaponiya: diplomatik əlaqələr, uğurlu perspektivlər...

## *Prezident İlham Əliyev: "Yapon maliyyə institutlarının dəstəyi ilə icra etdiyimiz iki mühüm layihə enerji təhlükəsizliyimizə böyük töhfədir"*



***Məlum olduğu kimi, Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın etimadnaməsini qəbul edib.***

Prezident İlham Əliyevin görüşdə çıxışı zamanı bildirib ki, Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir: "Əməkdaşlığımızın çox geniş gündəliyi var. Əvvəla, bizim siyasi dialoqumuz çox fəaldır".

"Biz iqtisadi sahədə çox yaxşı nəticələr görürük", -deyən Prezident İlham Əliyev yapon şirkətlərinin Azərbaycanda iş qurmaqda maraqlı olduğunu bildirib: "Onlar yaxşı investorlardır. Onlar Azərbaycanın neft və qaz sektoruna çoxlu vəsait yatırıblar. Ümidvaram ki, iqtisadiyyatımızın digər sektorlarına da maraq olacaqdır. Xüsusilə biznes mühiti ilə bağlı vəziyyətin yaxşılaşdırılmasını nəzərə alaraq Azərbaycan əcnəbi şirkətlər üçün cəlbedici olmağa davam edir".

Prezident İlham Əliyev yapon banklarının və maliyyə institutlarının maliyyə dəstəyi ilə enerji infrastrukturunun iki mühüm layihəsinin icra edildiyini də bildirib: "Biz müxtəlif layihələrə maliyyə dəstəyi göstərdiyinizə görə sizə minnətdarıq. Yapon banklarının və maliyyə institutlarının maliyyə dəstəyi ilə biz enerji infrastrukturumuzun iki mühüm layihəsini icra etdik - iki elektrik stansiyası, sınaq stansiyaları, "Şimal-1" və "Şimal-2". Ümumi gücü 800 meqavata yaxındır. Əlbəttə ki, bu, bizim enerji təhlükəsizliyimizə böyük töhfədir".

Dövlət başçısı, ümumiyyətlə yapon şirkətlərinin Azərbaycanda çalışmaqla, həmçinin müxtəlif sosial layihələrin həyata keçirilməsində könüllü olaraq dəstək göstərdiklərinə minnətdarlığını və bundan sonra da bu əməkdaşlığın daha da sıx olacağını bildirib: "Biz yapon şirkətlərinin burada çalışdığına şadıq və həmçinin müxtəlif sosial layihələrə göstərdiyiniz könüllü dəstəyinizə görə sizə təşəkkürümüzü bildirmək istəyirik. Bu layihələr təhsil, infrastruktur, müxtəlif kəndlərdə su təchizatı ilə bağlıdır. Biz bu dostluq jestini çox yüksək qiymətləndiririk və buna görə mən bir daha sizin hökumətinizə öz təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, üzümüzə gələn illərdə biz bu sıx əməkdaşlığı gücləndirəcəyik"

### Azərbaycan-Yaponiya diplomatik əlaqələrin 28 ili və perspektivlər...

Sentyabrın 7-si Azərbaycan və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 28-ci ili yaxınlaşır. Bir çox mütəxəssislər Azərbaycan ilə Yaponiya arasında münasibətlərin ən qədim dövrlərini ümumtürk kontekstində götürməyi təklif edirlər. Həqiqətən də qədim türk mənbələrində uzaq Şərqin ecazkar ölkəsi olan Yaponiya haqqında məlumatlar öz əksini tapıb. Məhz uzun tarixə və qarşılıqlı etimada əsaslanan həmin tarixi münasibətlər bu gün də uğurla davam etdirilir. O da məlumdur ki, Dünya müharibəsi zamanı Yaponiya və SSRİ arasında baş verən hərbi toqquşmalar o dövrdə imperiyanın tərkib hissəsi olan Azərbaycanla hər hansı yaxın əlaqələrin qurulmasına imkan verməyib. Uzun müddət Yaponiya ilə gərgin münasibətlərdə olan SSRİ, nəhayət ki, 1956-cı ilin oktyabrında bu ölkə ilə diplomatik münasibətlər yaradıb, bu münasibətlərin müxtəlif sahələr, o cümlədən mədəniyyət üzrə bərpasını təzahür etdirən birgə bəyannamə imzalanıb. Bu bəyannamə Azərbaycan və Yaponiya arasında da ilk növbədə mədəni əlaqələrin qurulmasına şərait yaradıb. Artıq XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan-Yaponiya əlaqələrində ciddi nəticələr əldə edilib, hətta SSRİ-Yaponiya cəmiyyətinin Sumqayıt şəhəri üzrə şöbəsi də fəaliyyət göstərib. Məhz həmin vaxtlar Yaponiyada Azərbaycan haqqında informasiyalara böyük tələbat yaranıb.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə Azərbaycan və Yaponiya arasında mədəni əməkdaşlıq əlaqələri daha da genişlənib. 1973-1975-ci illərdə Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi sayəsində Bakıda Yaponiya mütəxəssislərinin iştirakı və yapon texnologiyasının köməyi ilə o dövrlər üçün ultramüasir hesab edilən məişət kondisionerləri zavodu -"Bakkondisioner" tikilərək istifadəyə verildi. Bu zavod ildə 400 min ədəd kondisioner istehsal etmək gücünə malik idi və Yaponiyanın məşhur "Toshiba" şirkətinin lisenziyası əsasında keçmiş SSRİ ərazisində qurulan yeganə müəssisə sayılırdı. Bütün bunlar Azərbaycan-Yaponiya əməkdaşlığının həm möhkəm təməli, həm də mühüm uğurları sayıla bilər.

Yaponiya Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən olub. 1992-ci il sentyabrın 7-də Azərbaycanla Yaponiya arasında diplomatik əlaqələr quruldu. Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun Azərbaycanın çətin günlərində ölkəmizə verdiyi dəstək əlaqələrin formalaşmasında mühüm rol oynadı. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşan bu beynəlxalq tədbir müstəqil ölkəmizin Yaponiya ilə əlaqələrində daha bir uğurlu başlanğıc rolunu oynamışdır. Ulu Öndər Heydər Əliyevin 1998-ci il fevralın 24-dən 28-nə qədər Yaponiyaya ilk rəsmi səfəri isə yalnız iki ölkə arasında qarşılıqlı münasibətlərdə deyil, həmçinin Azərbaycanın Cənub-Şərqi Asiya dövlətləri ilə siyasi və iqtisadi əlaqələri tarixində yeni bir səhifə açmışdır. Bu səfəri çərçivəsində Heydər Əliyev Yaponiyanın siyasi və işgüzar dairələri ilə çoxsaylı səmərəli görüşlər keçirmiş, ölkə rəsmiləri ilə müzakirələrdə ikitərəfli münasibətlərin genişləndirilməsi, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələlərinə dair geniş müzakirələr aparmışdır. Onu da qeyd edək ki, Yaponiya Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü Böyük İpək Yolunun bərpası təşəbbüsünə fəal dəstək vermiş, bu məsələdə Bakı ilə Tokionun maraqları tamamilə üst-üstə düşmüşdür. Xatırladaq ki, yeni "İpək yolu" Yaponiyadan başlayaraq, Çin və Orta Asiyadan, daha sonra isə Xəzər dənizindən və Azərbaycandan keçir. Heydər Əliyevin dediyi kimi, "Yaponiya bu yolun ən şərq nöqtəsində, Azərbaycan isə ortasındadır".

### Prezident İlham Əliyev: "Ümid edirəm ki, üzümüzə gələn illərdə biz bu sıx əməkdaşlığı gücləndirəcəyik"

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu xətt daha da inkişaf etdirilib, Yaponiya-Azərbaycan münasibətlərində yeni bir dövr başlanıb. 2003-cü il noyabrın 24-də Prezident İlham Əliyev Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fuçisakeni qəbul edərək Yaponiya-Azərbaycan münasibətlərinin sarsılmaz olduğunu bir daha bəyan edib. Bundan az sonra, 2005-ci il oktyabrın 12-də Azərbaycanın Yaponiyada səfirliyi açılıb. Burada Azərbaycanın Yaponiyadakı səfirliyinin iki ölkə arasında əlaqələrin daha da intensivləşməsi, genişlənməsi və inkişafı istiqamətində son illər apardığı hərtərəfli fəaliyyəti xüsusi qeyd etmək lazımdır. Səfirliyimizin əməkdaşlarının gərgin əməyi sayəsində iki ölkə arasında əlaqələr böyük sürətlə inkişaf edir, qarşılıqlı rəsmi səfərlər yüksək səviyyədə təşkil edilir, birgə iqtisadi sərgilər keçirilir və yalnız paytaxtlar arasında deyil, eyni zamanda regionlararası əməkdaşlıq da formalaşır.

Sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il martın 7-dən 10-dək Yaponiyaya rəsmi səfəri ölkələrarası münasibətləri yeni səviyyəyə yüksəldib. Bütün bunlar deməyə əsas verir ki, iki ölkə arasında əlaqələr çox geniş şəkildə şaxələnib və zənginləşib. Yaponiya Azərbaycana artıq yardıma ehtiyacı olan ölkə kimi deyil, müasir səviyyədə inkişaf etmiş, bərabər səviyyəli tərəfdaş kimi baxır.

İkitərəfli əlaqələrin inkişafı Yaponiyaya imkan verib ki, Azərbaycanı Yaponiya "İnkişaf ehtiyacları üçün rəsmi kömək"- İRK presedent ölkələri siyahısına salsın. İRK çərçivəsində Yaponiya hökuməti Azərbaycana kənd təsərrüfatı, səhiyyə, habelə xırda və orta biznes sahələrində əvəzsiz yardım göstərir. Yaponiya tərəfi Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün də kreditlər verir. Yaponiya hökuməti Azərbaycana qaçqınların yaşayış yerlərində məktəb və xəstəxana tikintisinə 200 milyon dollar həcmində əvəzsiz yardım ayırıb.

Ölkələrimiz arasındakı əlaqələrin inkişafı üçün atılan addımlar 1996-cı ilə qədər daha çox rəmzi xarakter daşıyan ticarət mübadiləsini kifayət qədər yüksəldib.

Göründüy kimi, Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın etimadnaməsini qəbul edərkən bildirib ki, Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir: "Ümid edirəm ki, üzümüzə gələn illərdə biz bu sıx əməkdaşlığı gücləndirəcəyik".

***RƏFİQƏ HÜSEYNOVA***

# Prezidentin köməkçisi Gəncədə din xadimləri ilə görüş keçirib

***Gəncə şəhərindəki İmamzadə dini kompleksində bir qrup din xadimi ilə görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, ayrı-ayrı regionlardan olan din xadimləri, respublikanın müxtəlif məscidlərinin imamları iştirak edib.***

Görüşdə çıxış edən Anar Ələkbərov müstəqillik illərində dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşdığını, Azərbaycanda dövlət səviyyəsində dinə xüsusi diqqət göstərildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim bu sahəyə dəstək göstərir. Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət və həssaslıqla yanaşır. Qeyd olunub ki, Azərbaycanda dövlət-din əlaqələri, dinlərarası əlaqələr sağlam zəmin üzərində qurulub. Bu, dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu gün dünyanın bir çox ölkəsində dini zəmində zorakılığın, münaqişələrin şahidi olsaq da, Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi seçilir. Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu, bütün dinlərin, etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığı qeyd olunub.



Bu sahədəki nailiyyətlərimizin dünya birliyində yüksək qiymətləndirildiyi, Bakıda dünya dini liderlərinin birinci və ikinci Sammitlərinin keçirildiyi, 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildiyi, bütün bu kimi tədbirlərin dini tolerantlıq sahəsindəki uğurlarımızın təzahürü olduğu diqqətə çatdırılıb.

Anar Ələkbərov ölkəmizin demək olar ki, bütün bölgələrində, hər bir rayonunda məscidlərin inşa olunduğunu və ya bərpa edildiyini, yeni məscidlərin açıldılını bildirib. Bütün bunlar bir daha göstərir ki, dövlət siyasətində tarixi keçmişimizin unudulmaması, gələcək nəsillərin milli-mənəvi dəyərlərə daha çox bağlanması mühüm yer tutur. Son illər Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, İmamzadə dini kompleksində geniş tikinti və yenidənqurma işləri həyata keçirildiyi bildirilib. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığı ilə Şuşa məscidinin bənzəri olan məscidin tikilməsinin və uzun fasilədən sonra burada azan səsinin ucalmasının əlamətdar hadisə olduğu diqqətə çatdırılıb.





Məscidlərlə yanaşı ölkəmizdə kilsələr, sinaqoqlar təmir edilir. Eyni zamanda Azərbaycanda dövlət qeydiyyatından keçən dini icmaların fəaliyyəti üçün şərait yaradıldığı, mövcud problemlərin həlli istiqamətində mühüm addımlar atıldığı bildirilib.

Bu istiqamətdə ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Fond reallaşdırdığı layihələ müxtəlif xalqlar və dinlər arasında dostluq, həmrəylik kimi dəyərlərin bərqərar olmasına öz töhfələrini verməkdədir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdəki Hazırda isə Heydər Əliyev Fondu tərəfindən Bakının Xəzər rayonunun Binə qəsəbəsində Möhsün Səlim məscidində təmir işləri aparılır, Şamaxı rayonundakı Pirsaat Baba ziyarətgahında yenidənqurma işləri həyata keçirilir, ziyarətgahın ərazisində yeni məscid binası inşa olunur. Həmçinin, Şamaxıdakı Pir Ömər Sultan ziyarətgahında arxeoloji tədqiqatlar aparılıb və türbənin qorunub saxlanılması məqsədilə konservasiya işlərinin layihələndirilməsi davam edir. Şəki şəhərindəki Xan məscidində təmir-bərpasına başlanılıb, Qəbələ rayonunun Nic kəndində qədim alban kilsəində yenidənqurma işləri aparılır, İsmayıllı rayonun Lahıc qəsəbəsində "Bədöyün" məscidi əsaslı təmir olunur.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və dinlərarası dialoqun genişləndirilməsi istiqamətində səyləri vurğulanıb. Bildirilib ki, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xidmətləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə, o cümlədən dindarların həyatına da təsirsiz ötüşmədiyini deyib. Qeyd edib ki, yeni növ koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə kütləvi tədbirlər keçirilmir. Beynəlxalq təcrübə və ilk növbədə insan həyatının qorunması əsas Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən bu ilin mart ayından məscid, kilsə, sinaqoq və ziyarətgahlarda ibadətlər müvəqqəti olaraq dayandırılıb. İnsanların sağlamlığının qorunması baxımından atılmış bu addımın istər din xadimləri, istərsə də əhali tərəfindən anlayışla qəbul olunduğu minnətdarlıqla diqqətə çatdırılıb. Qeyd olunub ki, virus səbəbindən dünya zəvvarlarının, o cümlədən çoxsaylı vətəndaşlarımızın Həcc ziyarəti arzusu baş tutmayıb, Məhərrəmlik ayı ərzində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsi qərara alınıb, eyni zamanda Ramazan və Qurban bayramlarında dini ayin və mərasimlərin keçirilməsi mümkün olmayıb. İnsanlar məscidlərdə bayram namazını birlikdə qıla bilməsə də, televiziya kanallarında müxtəlif məscidlərin imamlarının iştirakı ilə qılınan namaz canlı nümayiş olunub və bu da pandemiya şəraitində insanlar tərəfindən rəğbətlə qarşılanıb.

Anar Ələkbərov qeyd edib ki, pandemiyanın başlanğıc mərhələsində karantin rejimi və tətbiq olunan bir sıra məhdudiyyətlərin iqtisadi sahədə çətinliklərə yol açacağı proqnozlaşdırılsa da, Prezident İlham Əliyev vətəndaşların sağlamlığının qorunmasını prioritet olaraq müəyyənləşdirib, hökumətin fəaliyyəti də bu strategiya üzərində qurulub. Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən müddət ərzində xüsusi rejimli xəstəxanalar lazımi avadanlıqla təchiz edilib, təlimlər keçirilərək kadr hazırlığı təmin olunub, əhalinin ehtiyacları qarşılanıb, xaricdəki soydaşlarımızın ölkəyə gətirilməsi təşkil olunub. Qəbul edilən qərarlar və görülən tədbirlər nəticəsində xəstəliyin nəzarət altına alındığı, səhiyyə sisteminin mövcud çağırışa uyğun olaraq qurulduğu qeyd edilib.

Görüşdə din xadimlərinin fikirləri və təklifləri dinlənilib, belə müzakirələrin əhəmiyyəti qeyd olunub. Çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə olan diqqəti yüksək dəyərləndiriblər və ölkəmizdə bu sahədə görüləcək işlərə dair müzakirələr aparılıb.

## Zakir Həsənov Moskvada keçirilən müdafiə nazirlərinin görüşündə iştirak edib




Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 4-də Moskvada keçirilən Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv dövlətləri Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, iclasda çıxış edən general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin uzun illərdir davam etdiyini, bunun nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün düşdüyünü görüş iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, ərazilərimizin 20 faizinin MDB-nin üzvü olan bir dövlət tərəfindən işğalı faktı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən bu Birliyin normalarına və ruhuna ziddir. Ermənistan tərəfinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı təxribatın regional təhlükəsizliyə təhdid yaratdığını qeyd edən Müdafiə naziri eyni zamanda rəsmi Yerevanın Azərbaycanla MDB-yə üzv olan dövlətlər arasında münasibətlərə xələl gətirmək məqsədi güddüyünü də bildirib.

İclasın yekununda Böyük Vətən Müharibəsində Qələbənin və İkinci Dünya Müharibəsinin bitməsinin 75 illiyi ilə bağlı birgə bəyanat imzalanıb. Bəyanatı imzalayan Müdafiə nazirləri bir sıra məsələlərə münasibət bildirməklə yanaşı BMT-nin məqsəd və prinsiplərinə, qəbul edilmiş beynəlxalq hüquq normalarına, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiq qaldıqlarını təsdiq ediblər.

# Nikol Paşinyan nəyə görə arvadını Azərbaycana atəş açmağa göndərib?

***Yayın son həftəsində Dağlıq Qarabağ münaqişəsi zonasında ən qəribə hadisələrdən biri baş verib: avqustun 25-dən 31-dək Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan başda olmaqla 15 erməni qadın... Azərbaycanın işğal edilmiş ərazilərində hərbi hazırlıq kursu keçib.***

AZƏRTAC xəbər verir ki, "Vestnik Kavkaza" nəşrində dərc olunmuş "Nikol Paşinyan nəyə görə arvadını Azərbaycana atəş açmağa göndərib?" sərlövhəli məqalə bu mövzuya həsr edilib.

Məqalədə deyilir: "Ermənistan Müdafiə Nazirliyi "könüllü xalq dəstələri" yaradılması barədə məlumat verdiyi gün nəinki heç vaxt əllərində silah tutmamış, üstəlik "Qadınlar sülh tərəfdarıdır" təşkilatının üzvü olan qadınlar Anna Akopyan tərəfindən qeyri-qanuni şəkildə Ermənistandan Azərbaycanın işğal edilmiş torpaqlarına aparılıb.

Beləliklə, Nikol Paşinyanın arvadı ərinin yeni hərbi layihəsinin həyata keçirilməsinə yönəlmiş ilk addımı atmaqla, Azərbaycan rayonlarının işğalının davam etdirilməsi naminə nələr etməyə hazır olduğunu göstərib. Anna Akopyan Kalaşnikov avtomatı və hücum tüfəngi ilə rəftar etməyi mənimsəyib, döyüş taktikasını (onun şəxsi saytındakı rəsmi informasiyaya görə yalnız müdafiə xarakterli döyüşdən söhbət gedir) öyrənib, yaralı işğalçılara ilk yardım göstərilməsi üzrə məşq keçib.

Hərbi aksiyadan daha çox təşviqat aksiyası olan bu tədbirin yekunlarına əsasən, Qarabağın təcrübəli işğalçıları Akopyanın qrupuna "dörd" qiyməti veriblər, çünki "Qadınlar sülh tərəfdarıdır" təşkilatının iştirakçılarından yalnız 5 nəfəri hər hədəfi 15 saniyə ərzində məhv etmək bacarığını "əla" nümayiş etdirə bilib, qalan qadınlar təsəlliverici "müsbət" qiymətinə layiq görülüblər. Azərbaycana qarşı təlim xarakterli təcavüzə görə baş nazirin arvadının hansı qiymət alması barədə onun saytında məlumat verilmir.

Anna Akopyan Azərbaycan qoşunlarına qarşı müharibə aparmaqda məşq etməyə başlamaq qərarını şərh edərək əminliklə bildirib ki, o özü də, "bir çox başqa qadınlar da əllərinə silah götürməyə, lakin bunu müharibə xatirinə deyil, vətənimizin və uşaqlarımızın müdafiəsi üçün etməyə hazırdırlar". Bununla belə, Akopyan hərbi hazırlığı Ermənistan ərazisində də



keçmək mümkün olduğu halda qadınları nəyə görə məhz Azərbaycanın işğal edilmiş torpaqlarına apardığını izah etməyib (yeri gəlmişkən, Qarabağ nə Paşinyanın arvadının vətəni, nə də onun uşaqlarının yaşadığı yerdir).

Bir tərəfdən, bu aksiyanın mənası aydındır: baş nazir vətəndaşları könüllülər dəstəsinə yığmaq kampaniyasına güclü start vermək və Azərbaycan torpaqlarını işğal etmək naminə heç nəyi əsirgəmədiyini əhaliyə göstərmək üçün öz arvadını rəmzi olaraq qoşunların təmas xəttinə göndərir. Bu halda belə bir aksiyanın əlavə yozumları onu narahat etmir ki, Anna Akopyan könüllülər dəstəsinə birinci olaraq yazılmaqla, Azərbaycanın döyüş mövqelərinə və dinc kəndlərinə birinci olaraq atəş açmaqla əslində könüllülər dəstəsinə başçılıq edib. Bu həm də o deməkdir ki, əgər baş nazir qadınları müharibəyə göndərməyə məcbur olubsa, deməli, kişilərə çox da ümid etmir.

Digər tərəfdən, bu aksiyanı rəsmi Yerevanın digər hərəkətləri ilə bir növ uzlaşdırmağa, məhz Azərbaycan ilə danışıqlar masası arxasına qayıtmaq və Dağlıq Qarabağ münaqişəsini dinc yolla nizamlamaq arzusu barədə bəyanatları ilə əlaqələndirmək istəsək, aksiyanın mənası heçə enir. Burada problem təkcə onda deyil ki, diplomatik prosesə sadiqlikdən dəm vurmaq və eyni zamanda, ölkənin bütün əhalisini döyüş əməliyyatlarına hazırlamaq (beləliklə özünün sülh niyyətində olmasını təkzib etmək) məntiqsizdir. Problem həm də ondadır ki, gözdən pərdə asmaq üçün adi vətəndaşların müharibəyə bu cür hazırlanması Ermənistanın həm hərbi, həm də danışıqlarla bağlı mövqelərinin zəifliyini nümayiş etdirir.

Anna Akopyanın Qarabağda qadınların atəş açmaları barədə, əllərində silah tutan hərbi geyimli qadınların fotoşəkilləri ilə gen-bol müşayiət olunan söhbətinin həqiqi yekunu cinsindən və yaşından asılı olmayaraq Ermənistanın hər bir vətəndaşının Yerevanın işğalçı siyasətini dəstəkləməyə hazır olduğuna deyil, təcavüzkar respublikanın münaqişə zonasında status-kvonu saxlamaq resurslarının tükənməsinə dəlalət edir. Nikol Paşinyan arvadını Azərbaycanda müharibə aparmağa göndərməklə etiraf edib ki, onun nizami orduya ümidi yoxdur və erməni silahının gücündən dəm vurmaqla əslində yenidən öz zəifliyini göstərib.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında marağı olan hər kəs bu etirafı eşitdi".

## Məktəblər açılır, valideynlər isə narahatdır: uşaqları nə gözləyir?



***Yeni tədris ilinin başlamasına artıq bir həftə qalıb. Valideynlər isə uşaqları məktəbə göndərib göndərməkdə tərəddüd edir. Bir tərəfdən virus həyəcan təbili çalır, digər tərəfdən isə uşaqlar məktəbə getməsə dərslərdən geri qalacaqlar. Təhsil Nazirliyi isə son qərarı valideynlərin ixtiyarına buraxır.***

Həkim həkim-infeksionist Namiq Nəbiyev deyir ki, 10 yaşına kimi uşaqlar virusa yoluxsa belə xəstəliyi yüngül formada keçirir. Məktəbdə gigiyenik qaydalar daim nəzarətdə saxlanılmalıdır və deyilən bütün şərtlərə əməl etməklə şagirdlər təhsilə davam edə bilərlər. Bundan başqa sinif otaqları mütəmadi olaraq dezinfeksiya edilməli və şagirdlər sinfə daxil olarkən əllərini dezinfeksiya etməli, sinfin havası mütəmadi olaraq dəyişdirilməlidir. Təhsil Nazirliyindən verilən məlumata görə artıq bütün məktəblərə qaydalara əməl edilməsi ilə bağlı tapşırıq verilib və məktəblərə nəzarət gücləndiriləcək.

Valideynləri maraqlandıran növbəti sual isə metronun fəaliyyətinin bərpa edilib-edilməməsidir. Bakı metropoliteninden verilən məlumata görə, metroların fəaliyyəti yenidən bərpa olunacaq.

## Bakıda "Dəniz kuboku" müsabiqəsinin bağlanış mərasimi keçirilib

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində Azərbaycan ərazi sularında keçirilən "Dəniz kuboku" müsabiqəsinin sentyabrın 4-də bağlanış mərasimi keçirilib. SİA xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsini icra edən general-leytenant Nizam Osmanov, Rusiyanın Müdafiə nazirinin birinci müavini ordu generalı Ruslan Tsalikov və digər qonaqlar iştirak ediblər.



Tədbirin senari müəllifi və aparıcısı Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayıb.

"Dəniz kuboku" müsabiqəsi Təşkilat Komitəsinin sədri, general-leytenant N.Osmanov çıxış edərək müsabiqənin gedişatı və nəticələrindən danışıb. Azərbaycan və "Dəniz kuboku" haqqında videoçarx nümayiş edildikdən sonra qalibiyyət kuboku və "Dəniz kuboku" müsabiqəsində iştirak edən komandaların dövlət bayraqları meydana gətirilib.

Qalib komandalara kubok, medallar və qiymətli hədiyyələr təqdim olunub. Yarışda bərabər xal toplayaraq birinciliyi paylaşan Azərbaycan və Rusiyanın dövlət himnləri səsləndirilib. Ordu generalı R.Tsalikov çıxış edərək ölkəmizin "Dəniz kuboku" müsabiqəsinin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə təşəkkürünü bildirib. Tədbirdə yekun nitqi ilə çıxış edən general-leytenant K.Vəliyev müsabiqənin Xəzəryanı ölkələrin hərbi dənizçilərinin daha yaxından tanış olmaları, qarşılıqlı münasibətlər və əməkdaşlığın güclənməsi, hərbçilər arasında yoldaşlıq mühitinin yaranmasına xidmət etdiyini bildirib, tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırıb və "Dəniz kuboku" müsabiqəsini bağlı elan edib.

## Rayonlara gediş-gəliş bərpa olunur




Azərbaycanda növbəti dəfə karantin rejiminin yumşaldılması tədbirləri həyata keçirilir. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 8-i saat 00:00-dan aşağıdakı sahələr üzrə əlavə yumşalma tədbirlərinin həyata keçirilməsi qərara alınıb. Qərara əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Operativ Qərargah mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırır. Operativ Qərargah mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırır.



# Sevinc Fətəliyeva: "Yunanıstan-Kipr-Ermənistan hərbi əməkdaşlıq Azərbaycanı narahat etməyə bilməz"

"Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfirini qəbul edərkən çox vacib məqamlara toxundu. Dövlət başçısı iki ölkə arasında münasibətlərin inkişafına əngəl olan məsələləri aydın şəkildə ifadə etdi". SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, 2015-2019-ci illərdə Yunanıstan hökumətinə solçu SYRİZA koalisiyası rəhbərlik edirdi. Bu dövr ərzində Yunanıstanın xarici qonşuları ilə uzun illər boyu mübahisəli məsələləri tədricən həll olunmağa doğru getmişdi. Belə ki, nəhayət keçmiş Yuqoslav Respublikası Makedoniya adının dəyişdirilməsi məsələsində iki ölkə arasında razılıq əldə edilmiş və ölkənin adı Şimali Makedoniya olmuşdur. Bununla yanaşı, 2017-ci ilin sonlarında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Yunanıstana tarixi səfər etmişdir. Bu Türkiyənin Yunanıstana 1952-ci ildən sonra ilk dəfə olaraq dövlət başçısının səfəri idi və hər iki dövlətin bir birinə qarşı çox sayda iradları olmasına baxmayaraq, münasibətlərin müsbət inkişafına dair müəyyən işarə idi. Eyni zamanda, təxminən 10 il ərzində Yunanıstan ağır maliyyə böhranı keçirmiş, Avropa İttifaqı tərəfindən ölkədə maliyyə dövriyyəsinə sərt nəzarət tədbirləri tətbiq olunmuş, ölkənin iqtisadiyyatı kəskin zəifləmişdir.

Millət vəkilinin sözlərinə görə, Yunanıstan hökumətinin müraciəti əsasında ARDNŞ bu ölkənin dövlət qaz operatoru DESFA-nın özəlləşdirilməsi tenderində qalib olmuş və 2013-cü ilin sonunda müvafiq razılaşma imzalanmışdır. Lakin 2015-ci ildə hakimiyyətə gəlmiş SYRİZA koalisiyasının siyasəti nəticəsində 2018-ci ildə bu razılaşmaya son qoyulmuşdur. Avans şəklində ödənilmiş maliyyə vəsaitindən Yunanıstan hökuməti 4 il ərzində yararlanmışdır. Azərbaycan-Yunanıstan arasında iqtisadi münasibətlər son illər TAP layihəsi çərçivəsində inkişaf etməkdədir. Layihənin 97%-i artıq tamamlanmış, boru kəmərinin çəkilməsi ərzində Yunanıstanın şirkətləri, icmaları və fərdləri bu layihədən yararlanmışlar. Təkcə sosial və ətraf mühit üçün 32 milyon ABŞ dolları məbləğində TAP tərəfindən könüllü sərmayə qoyulmuşdur.

S.Fətəliyeva həmçinin qeyd edib ki, Yunanıstan, Kipr və Ermənistan arasında hərbi əməkdaşlıq Azərbaycanı narahat etməyə bilməz: "Bir tərəfdən bu ittifaq qardaş Türkiyəyə qarşı yönəlmişdir. Digər tərəfdən, Ermənistan tərəfi özünün işğalçılıq siyasətini müdafiə etmək məqsədilə Yunanıstanın və Kiprin simasında yeni müttəfiqlər əldə etməyə çalışır. Lakin bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanla Yunanıstan arasında 20-dən çox imzalanmış saziş və müqavilələr var, 2004-2014-cü illər ərzində iki dövlət arasında intensiv qarşılıqlı səfərlər baş tutmuşdur. Yunanıstan tərəfi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir ki, münasibətlərin bu şəkildə inkişafı mümkün olmuşdur. Yunanıstan müstəqil bir dövlət kimi, belə hərbi ittifaqın regionda sülhə və təhlükəsizliyə ciddi bir təhdid olduğunu, eyni zamanda Ermənistanın tarixən ölkələr arasında nifaq salmaq kimi xüsusiyyətini hər halda bilir. Əlbəttə ki, Azərbaycan və Yunanıstan arasında münasibətlərin inkişafı üçün böyük potensial var. Lakin, ölkəmizin ərazi bütövlüyünə və təhlükəsizliyinə yönəlmiş hər bir təhdidin qarşısı qəti şəkildə alınmalıdır".



# Vüqar Rəhimzadə: "Prezidentimiz Azərbaycanın milli maraqlarının ən öndə olduğunu bir daha nümayiş etdirdi"

"Dünya miqyasında "açıq qapı" siyasəti həyata keçirən Azərbaycanın istər ikili, istərsə də çoxtərəfli çərçivədə əlaqələrin qurulmasında və müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsində söykəndiyi prinsiplər dəyişməzdir. Milli maraqları atdığı hər addımında öndə saxlayan dövlətimiz beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək heç bir dövlətin daxili işinə qarışmır, eyni zamanda, ölkəmizin daxili işinə müdaxiləni yolverilməz hesab edir. Bu günlərdə Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən iki ölkənin münasibətlərindəki bir sıra məqamları önə çəkərək ölkəmizin milli maraqlarını qətiyyətlə ifadə etmiş, rəsmi Afinadan gözləntiləri diqqətə çatdırmışdır: "Toxunulası bir müsbət məsələ tapmaq istəyirəm, amma əfsuslar olsun ki, tapa bilmirəm. Ola bilsin, biz ümid edirik ki, Yunanıstanın nisbətən bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirəcək və biz təmasları bərpa edə, müsbət dinamika yaradan məsələləri müzakirə edə bilərik". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə vurğulayıb ki, ixtisasca diplomat olan, dünyanın ən nüfuzlu ali məktəblərindən birində 5 il diplomat yetişdirən, diplomatik qaydaları yüksək səviyyədə bilən və daim bu qaydalara riayət edən möhtərəm Prezidentimiz İlham Əliyev Yunanıstanın səfiri ilə açıq danışaraq bir daha nümayiş etdirdi ki, Azərbaycanın milli maraqları ən öndə olan məsələdir, burada qapalı və qaranlıq heç bir məqam ola bilməz. Əməkdaşlığımıza mənfi təsir göstərən məsələlərə diqqət yönəldən cənab İlham Əliyev iqtisadi mövzuda iki ölkə hökuməti arasında yaranan anlaşılmazlıqlardan bəhs edərək "Mənim sizinlə qaldırmaq istədiyim, sizin bunu digər mənbələrdən deyil, məndən eşitməyinizi istədiyim ikinci məsələ Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığımızdır" söyləməklə Yunanıstan hakimiyyətinin Ermənistanla hərbi sahədə əməkdaşlığından Azərbaycanın narahatlığını şərtləndirən amilləri diqqətə çatdırmışdır: "Ermənistanın işğalçılıq siyasəti ucbatından 30 ildən artıqdır ki, 20 faiz torpağımız işğal altında, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətindədir. XX əsrin ən dəhşətli faciəsi kimi dəyərləndirilən Xocalı soyqırımı törədilib. Hər zaman qeyd olunduğu kimi, işğalçıya dəstək olmaq, işğalçılıq siyasətini dəstəkləmək kimi qəbul olunmalıdır. İllərdir Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymaması, təxribatlarını davamlı şəkildə həyata keçirməsi, işğal altında olan torpaqlarımıza qanunsuz səfərlərin edilməsi, həmçinin bu ərazilərdə süni məskunlaşdırma siyasətinin aparılması təbii ki, işğalçıya belə dəstəklərdən irəli gəlir. Bu dəstəklər, hərbi əməkdaşlıqlar davam etdirildikcə ədalət meyarı maraqların arxasında çökür, işğalçı dövlətdə arxayınlıq yaranmaqla yanaşı, münaqişənin həllində maraqlı olmamaq işartıları daha aydın nəzərə çarpır. Son təxribatlar da deyilənlərin təsdiqidir".

"Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət məsələləri, milli maraqlarımız və Yunanıstanla əlaqələr kontekstində növbəti dəfə ölkəmizin qətiyyətli mövqeyini ifadə etmiş, əzm və iradə göstərmişdir" söyləyən baş redaktor dövlətimizin başçısı İlham Əliyevin səfirə bu xatırlatma ilə "Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb" mesajına da diqqəti yönəldib. Təbii ki, işğalçı özünə dəstək görəndə əməlinin beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu dərk etsə belə, yenə də işğalçılıq siyasətindən əl çəkməyəcək.

V.Rəhimzadə vurğulayıb ki, möhtərəm Prezidentimiz əməkdaşlıqda narazılıq yaradan digər məsələdən - Şərqi Aralıq dənizi regionunda Yunanıstan və Türkiyə arasında hazırda davam edən gərginlikdən bəhs edərək açıq mövqeyini nümayiş etdirdi: "Türkiyə qəti şəkildə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da qətiyyətlə Türkiyənin yanında olduğunu bildirir və qardaş ölkənin mövqeyinə növbəti dəfə dəstəyini nümayiş etdirdi. Dövlətimizin başçısı bir daha bildirdi ki, biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik. Bütün məsələlərdə Türkiyənin yanında olacağıq. Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir".

Baş redaktor belə bir ümumiləşdirməni aparıb ki, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət dünya diplomatiya tarixinə yazılan açıq, səmimi və milli maraqlara əsaslanan siyasət nümunəsidir. Məhz xarici siyasətimizin düzgün müəyyənləşdirilən prinsiplərinin nəticəsidir ki, ötən il VII Qlobal Bakı Forumunda 55 ölkədən 500-dən çox nümayəndənin iştirakı ilə dünyanın yeni xarici siyasəti Azərbaycanda müzakirə edildi. Dövlətimizin başçısı həmin forumda bir daha bu mesajı dünyaya ünvanlamışdır: "Biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq".



# Məlahət İbrahimqızı: "Anna Akopyan "sülhpərvər terrorçu" obrazında"

"Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan yenə də işğal olunmuş ərazilərimizə qanunsuz səfər edib. Bu dəfə o saxta sülh çağırışı ilə deyil, terrorçu obrazı ilə özünü nümayiş etdirib. Anna Akopyanın hərbi formada əlinə silah alaraq hərbi təlimdə iştirak edib. Bununla da, o "sülhpərvər" Akopyan obrazını terrorçu Akopyan obrazı ilə dəyişib". SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib.

Məlahət İbrahimqızı bildirib ki, bir müddət öncə işğal olunmuş torpaqlarımıza səfər edən A.Akopyan "Qadınlar sülh naminə" kampaniyası başladaraq sülhə çağırış edirdi. Əslində isə, onun gerçək məqsədi bir QHT təmsilçisi kimi beynəlxalq donorlardan böyük məbləğdə qrant əldə etmək olub. Akopyanın o zaman "sülh" çağırışlarının da gerçək niyyəti bu idi.

Millət vəkilinin sözərinə görə, A.Akopyan bugünlərdə işğal altında olan Qarabağda hərbi poliqonlardan birində döyüş təlimi keçməsi, erməni qızlarını buna cəlb etməsi, əlində silah səngərdən Azərbaycan kəndlərinin dinc sakinlərini hədəfə alması ilə erməni qadınlarının terrorçu obrazını yaradır: "Eyni zamanda, bu fakt həm də ona işarədir ki, Ermənistanda gənc oğlanlar hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edir. Buna görə də, Akopyan libasını dəyişməklə erməni qızlarını orduda xidmətə cəlb etmək üçün psixoloji hazırlıqlar görür".

M.İbrahimqızı qeyd edib ki, erməni şovinizmi dəyişməz olaraq qalır: "Ermənistanda hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq bu belədir. Diqqət edin, Paşinyan hakimiyyətə gəldikdən sonra keçmiş prezident Koçaryanı həbs etdirdi, həmçinin Sarkisyanın da yaxınları cinayət məsuliyyətinə cəlb olundu. Amma keçmiş və indiki hakimiyyət başçılarının bir birinə nifrət etməsi belə onların xislətini dəyişdirmir. Çünki işğalçı ölkənin strateji xətti vahiddir. Bu, bütövlükdə dünya ermənilərinin mövqeyidir ki, Azərbaycana qarşı işğalçılıq siyasəti davam etməlidir. Amma bu vəziyyət sonsuza qədər davam edə bilməz. Ermənilər anlamalıdır ki, Azərbaycan gec-tez torpaqlarını işğaldan azad edəcək".

# Naxçıvanda hərbi qulluqçuların sağlamlıqlarının qorunması diqqət mərkəzindədir

Naxçıvan Qarnizonu Qoşunlarında xidmət keçən hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması işi daim diqqət mərkəzində saxlanılır. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq hazırda tikinti işlərinin aparıldığı və MDB məkanında ən böyük hərbi xəstəxanalardan olacaq Naxçıvan Muxtar Respublikası Mərkəzi Hərbi Hospitalını misal göstərmək olar. Bir məqamı da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2018-ci il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərilərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Tibbin ən son nailiyyətlərindən olan avadanlıqlarla təchiz edilmiş hərbi hissələrin xəstəxana və tibb məntəqələrində müxtəlif bölmə, kabinə və laboratoriyalar fəaliyyət göstərir. Bütün hərbi xəstəxanalarda şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları mövcuddur. Müalicə və müayinə olunan hərbi qulluqçuların qidalanması və asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır. Hərbi tibb personalı yaradılan hərtərəfli şəraitdən istifadə edərək hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün əllərindən gələni əsirgəmirlər.

İstər həkim, istərsə də orta tibb işçilərinin peşəkarlıqlarının artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlərlə yanaşı təkmilləşdirmə kursları da keçirilir. Təxliyə qruplarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində müasir təcrübənin öyrənilməsi və tətbiqi daim diqqət mərkəzindədir. Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən birgə döyüş atışlı taktiki və taktiki-xüsusi təlimlərdə tibb təminatının yüksək səviyyədə təşkili üçün hərbi həkim heyəti praktiki fəaliyyətlərə cəlb edilir. Təlimlər zamanı peşəkar tibb personalı döyüş meydanından yaralıların səhra şəraitində açılmış tibb məntəqəsinə təxliyəsini və tibbi yardımın göstərilməsini məşq edirlər.

Muxtar respublika ərazisində koronavirus infeksiyasına qarşı aparılan zəruri qabaqlayıcı profilaktik tədbirlər çərçivəsində Naxçıvan Qarnizonu Qoşunlarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilərək sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır. Şəxsi heyətin sağlamlığı vacib amil olduğundan hərbi hissələrin xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Həyata keçirilən sanitariya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya işlərinin nəticəsidir ki, hazırda dünyanın mübarizə apardığı xəstəliklərdən uzaq olan hərbi qulluqçularımız "Təlimdə tər, döyüşdə zəfər" prinsipi ilə real döyüş şəraitində keçirilən təlimlərdə bütün tapşırıqları peşəkarcasına yerinə yetirir və ayıq-sayıq döyüş növbətçiliyi aparırlar.

# Cənubi Qafqaz Tovuz hadisələrindən sonra: yeni geosiyasi-hərbi və geoiqtisadi trendlər




***Təcavüzkar Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində bu ilin iyul ayında növbəti hərbi təxribatı xeyli narahatlıq yaratdı və meydana çoxlu suallar çıxardı. Ekspertlər rəsmi İrəvanın bu riskli və təhlükəli addımının arxasında hansı geosiyasi və geoiqtisadi maraqların dayandığını analiz edir, eyni zamanda, Cənubi Qafqazın geosiyasi mühitinə təsir imkanları olan böyük dövlətlərin bu prosesdə rolu üzərində dayanırlar. O cümlədən ATƏT-in Minsk qrupunun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atdığı addımları təhlil edirlər. Vurğulanan məqamlara daha geniş prizmadan nəzər saldıqda, meydana bir sıra maraqlı suallar çıxır və onlara cavab tapılması zərurəti aydın hiss edilir. Deyilənlər ümumilikdə Tovuz hadisələrinin geosiyasi analizinə geniş diqqət yetirmək ehtiyacını ortaya qoyur.***

## Təxribatçıya layiqli cavab: Ermənistan ağır zərbə aldı

Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdan 300 kilometr uzaqlıqda olan Tovuz istiqamətində Azərbaycanla sərhəd xəttində növbəti hərbi təxribat törətməsi və layiqli cavabını alması geosiyasi proseslərə ciddi təsir etdi. Erməni ordusunun qorxaq və aciz hərəkəti hətta onun havadarlarında belə ikrah hissi oyatdı. Ermənistan ordusunun vurğulanan istiqamətdəki bölmələri qəfil həmlə ilə Azərbaycanın strateji əhəmiyyətli hərbi postunu ələ keçirməyə cəhd göstərmişdi. Azərbaycan Ordusu qətiyyətli zərbə ilə ilk əks-həmlədə təcavüzkarın onlarla əsgərini məhv etmişdi. Buna "qəzəblənən" ermənilər geniş hücuma keçməyə cəhd göstərmişdilər. Və nəticəsi o oldu ki, 100-ə yaxın canlı qüvvə, onlarla hərbi texnika, hərbi qərargah, pilotsuz uçan aparatlar itirdilər.

Onda Nikol Paşinyan KTMT-yə yalvarmağa başladı ki, vəziyyətə müdaxilə etsin. Oradan da rədd cavabı alandan sonra "sülh"dən danışmağa başladı. Lakin bütün bu gedişatın arxasında bir sıra hərbi və geosiyasi məqamlar dayanırdı ki ekspertlər, onları geniş analiz etməyə böyük maraq göstərirlər. Məsələ həm regional, həm də qlobal miqyasda geosiyasi dinamika, böyük dövlətlərin əməkdaşlıq kursu və sabitliyin təmini yolları ilə sıx bağlıdır. Bütün bu vacib məqamlar da öz növbəsində müxtəlif sferalarda (məsələn, energetika, hərbi, nəqliyyat və s.) əməkdaşlığın məzmunu ilə əlaqəlidir. Həmin məqamlar prizmasından Ermənistan rəhbərliyinin Tovuz istiqamətində törətdiyi hərbi avantüra son dərəcə həssas geosiyasi-hərbi faktorlar, sabitliyin təmini problemi və əməkdaşlıq məqamları ilə sıx bağlıdır.

Ekspertlər öncə hansı səbəblərdən işğalçı Ermənistanın münaqişə zonasından yüz kilometrlərlə uzaqda olan istiqamətdə fəallaşmaq niyyətini aydınlaşdırmağa çalışır, bu məsələdə onun havadarlarının təhrikedici rol oynaya bilməsindən bəhs edirlər. Xüsusilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "bu təxribatın arxasında kimlərin durduğunu bilirik" bəyanatını verməsi təsadüfi sayılmır. Yəni, faktiki olaraq, məsələ böyük geosiyasi-hərbi təxribatla əlaqəli görünür. Məqsəd nə ola bilərdi?

Bu suala da ekspertlərin cavablarında ortaq məqamlar özünü göstərməkdədir. Hər şeydən öncə, diqqəti ona yönəldirlər ki, Tovuz Türkiyəyə və Avropaya gedən enerji marşrutlarının üstündədir. Bu əraziyə ermənilərin hərbi nəzarətini təmin etməklə öz siyasi və geosiyasi şərtlərini diktə etmək xülyasına qapılanlar olub. Azərbaycan Ordusunun öldürücü zərbələri onların arzularını gözlərində qoydu. Onu da vurğulayaq ki, bu hadisədən əvvəl dünya mətbuatı Türkiyənin Azərbaycandan daha çox qaz almağa başladığı barədə informasiya yaymışdı. Bunun fonunda Rusiyanın qaz ixracının azalması haqqında da informasiyalar yayılırdı. Bu iki informasiyanı eyni məntiqi çərçivəyə saldıqda düşündürücü qənaətlər əldə etmək olur.

Digər tərəfdən, ekspertlər Ermənistanın daxili vəziyyətinin daha da ağırlaşdığını vurğulayırlar. N.Paşinyanın siyasəti, faktiki olaraq, iflasa uğrayıb. Cəmiyyət və siyasi müxalifət ciddi narazılıqlarını bildirirlər. Yaranmış vəziyyətdən çıxmaq üçün N.Paşinyan iqtidarı xarici təhlükə amilinə yeni nəfəs verməyə çalışıb və xeyli dərəcədə də buna nail olub. Çünki Azərbaycan Ordusu o qədər güclü əks-zərbə endirdi ki, ermənilər şübhə etmədilər ki, müharibə genişlənsə, onlar məhv ola bilərlər.

Digər məqam Ermənistan siyasi rəhbərliyinin Dağlıq Qarabağdan diqqəti yayındırmaq üçün münaqişə zonasından uzaqda yeni münaqişə ocağı yaratmaq və ona bir neçə dövləti cəlb etmək məqsədinin olması ilə izah edilir. Həmin dövlətlər başda Rusiya olmaqla KTMT-nin üzvləridir. Yəni, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan. Bununla erməni siyasi rəhbərliyi Azərbaycana olan təcavüzünü beynəlxalq miqyasda örtbasdır etməklə fərqli istiqamətə yönəltməyi nəzərdə tuta bilərdi.

Bu cəhd də tam iflasa uğradı. KTMT üzvləri bu bəsit niyyəti açıq şəkildə rədd etdilər və Azərbaycana dost olduqlarını birbaşa dedilər. O cümlədən Rusiya Azərbaycanın onun üçün qiymətli tərəfdaş olduğunu bəyan etdi və tərəfləri sabitliyi təmin etməyə dəvət etdi. Bu, əslində, Ermənistana xəbərdarlıq idi ki, ona görə Azərbaycanla münasibətləri korlamaq fikrində deyil. N.Paşinyan bundan çox pərt oldu. Onun Minskdə narazılığını ifadə etməsi və buna elə də fikir verilməməsi ekspertlərin diqqətindən yayınmadı. Məhz oradan qayıtdıqdan sonra N.Paşinyan Təhlükəsizlik Şurasının iclasını çağırıb və qərara alıblar ki, "sülh yolu"nu seçsinlər. Rəsmi İrəvan nə Moskvadan, nə də Minskdən gözlədiyi dəstəyi ala bilmədi.

Nəhayət, ekspertlər istisna etmirlər ki, rəsmi İrəvan 2016-cı il Aprel döyüşlərinin psixoloji travmasından qurtulmaq üçün 2020-ci ilin iyul hadisələrini öz xeyirləri üçün yaratmağa cəhd göstərdilər. Amma yeni bir güclü psixoloji zərbə aldılar. İndi onlar həm aprel, həm də iyul döyüşlərinin acısını siyasi, hərbi və psixoloji olaraq çəkirlər. Məhz bu səbəbdəndir ki, son zamanlar erməni hərbçiləri yenə də Tovuz istiqamətindən hücumlara cəhd göstərirlər və əzilib geri çəkilirlər.

## Minsk qrupunun həmsədrləri: susqunluq, passivlik və ədalətsizlik...

Bütün bunların geosiyasi anlamı da çox aktualdır. Həmin kontekstdə üç aspektdə geosiyasi məqam üzərində düşünməyə ehtiyac görünür. Ekspertlər onların sırasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətini ayrıca vurğulayırlar. Doğrudan da, əgər Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məşğul olan beynəlxalq qrup mövcuddursa və onların problemi həll etmək üçün konkret proqramları vardırsa, Tovuz təxribatına ciddi və dərhal reaksiya verməli olduqları aydındır. Lakin reallıqda vəziyyət necə oldu?

Birincisi, ekspertlərə görə, əslində, rəsmi İrəvanın növbəti hərbi avantürası uzun illərdir ki, həmsədrlərin passivliyi və qeyri-obyektiv davranışlarının nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə məsələnin bu tərəfinə vurğu edib. Prezident İlham Əliyev birbaşa sual edir və cavab tələb edir ki, Minsk qrupu hansı səbəblərdən bu dərəcədə passiv və etinasızdır. Onlar real, substantiv danışıqlar aparmaq əvəzinə, danışıqları imitasiya ilə məşğuldurlar. Faktiki olaraq, bu cür davranışları ilə təcavüzkarı himayə edirlər, onun işğal siyasətinə dəstək verirlər. Lakin Azərbaycan bu vəziyyətə sona qədər dözmək fikrində deyil. Prezident İlham Əliyev qətiyyətlə tələb edir ki, ya danışıqlar real məzmunlu olmalı, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərə uyğun olaraq münaqişə həll edilməli, ya da Minsk qrupunun tərkibi dəyişməlidir. Danışıq-



lar yolunu bundan sonra da imitasiyaya çevirməyə Azərbaycan imkan verməyəcək, öz haqqını daha sərt şəkildə tələb edəcək.

Türkiyə rəhbərliyi də Azərbaycanın bu aspektdə bütün fikirləri və tələbləri ilə razıdır. Prezident Rəcəb Tayyib Ərdoğan Minsk qrupu həmsədrlərini kəskin tənqid edib, heç bir iş görmədiklərini dəfələrlə vurğulayıb. Pakistan rəhbərliyi də eyni mövqedədir. Hətta Rusiya Dövlət Dumasının bir sıra üzvləri Tovuz hadisələrindən sonra Minsk qrupunun fəaliyyətsizliyini tənqid edirlər. Onlar Azərbaycanın işğal olunmuş ərazilərindən təcavüzkar qüvvələrin çıxarılması zərurətini vurğulayırlar.

Lakin bütün bunlardan sonra belə, görünür ki, Minsk qrupu həmsədrləri fəaliyyətlərində dönüş etmək fikrində deyillər. Onlar demək olar ki, əvvəlki ümumi sözləri, təsirsiz “sülhün” tövsiyələrini təkrarlayırlar. Eyni zamanda, həmsədrlərin təcavüzkara yardımlar etməyə davam etdikləri barədə də informasiyalar yayılır.

İndi ekspertlər üçün aktual olan suallardan biri Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həlli prosesində vasitəçilik missiyasının böhran keçirməsi ilə bağlıdır. Haqlı olaraq hesab edilir ki, Minsk qrupu üzərinə düşəni yerinə yetirmir və ya yetirə bilmir. Belə olduğu halda bu, vasitəçilik institutunun iflasımı deməkdir? Birmənalı nəticə çıxarılmasa da, mütəxəssislər hesab edirlər ki, bu sahədə mövcud vəziyyəti kəskin surətdə dəyişmək gərəkdir. Başqa yolla münaqişəni həll etmək mümkün olmayacaq. Ermənilər danışıqları müxtəlif bəhanələrlə dalana dirəməkdə, təxribatlar törətməkdə davam edəcəklər. Bu səbəbdəndir ki, Minsk qrupu həmsədrlərinin susması fonunda dinc yolla həll imkanlarının ciddi şübhə altında qalmaqda davam etdiyini söyləmək olar. Tovuz hadisələri həm də bu məqamı bir daha təsdiq etdi.

Belə çıxır ki, Minsk qrupunun, faktiki olaraq, iki yolu vardır. Birincisi, fəaliyyətini ciddi surətdə dəyişməli, onu konstruktiv və real müstəviyə yönəltməlidir. Bu istiqamətdə həmsədrlərin tərkibi də dəyişə bilər. O cümlədən müsəlman ölkələrindən buraya üzv seçmək olar. Paralel olaraq, Ermənistanın qarşısında BMT-nin münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrə əməl etməsi şərti konkret və kəskin qoyulmalıdır.

İkincisi, Minsk qrupu münaqişəni həll etmək iqtidarında olmadığını açıq bəyan etməli və başqa vasitəçilərin prosesə müdaxiləsi zəruriliyini bildirməlidir. Çətin ki, ikinci varianta üstünlük verilsin. Həmsədrlər çalışacaqlar ki, öz geosiyasi maraqlarını təmin etmək üçün vəziyyəti indiki halda saxlasınlar. Reallıq isə başqa tələblər qoyur. Deməli, getdikcə daha aydın olacaq ki, münaqişənin ədalətli həllinə əngəl törədən faktorlar sırasında həmsədrlər sonuncu yeri tutmurlar. Bu isə, bizim qənaətə görə, yaxın zamanlarda Minsk qrupunun vasitəçilik fəaliyyətində növbəti böhranın meydana çıxmasına səbəb ola bilər.

## ABŞ, Fransa və Rusiya: böyük dövlətlərin “vasitəçiliyi”...

Məhz bu risk kontekstində digər iki geosiyasi aspekt üzərində dayanmağa ehtiyac görürük. Onlardan biri Rusiya, ABŞ və Fransanın Cənubi Qafqazda geosiyasi dinamikaya bundan sonra hansı təsirləri göstərə biləcəkləri ilə bağlıdır. Bu üç dövlət Minsk qrupunda həmsədr olmaqla yanaşı, qlobal miqyasda geosiyasi nüfuz uğrunda fəal mübarizə aparanlar sırasındadırlar. Onların Ermənistana münasibətlərində də müəyyən kəsişən məqamlar mövcuddur. Hər üçü Ermənistanı dəstəkləyir. Amerika əsas olaraq maliyyə və diplomatiya sahəsində İrəvana himayədarlıq edir. N.Paşinyanın hakimiyyətə gətirilməsində ABŞ-ın rolu danılmazdır. Amerikanın Ermənistandakı keçmiş səfiri də fəaliyyət müddəti bitənə yaxın demişdi ki, Ermənistanda onların fəaliyyəti nəticəsində geniş sosial şəbəkə yaradılıb və küçələrə onlar çıxarılıb. Ayrıca, Soros fondunun Ermənistanda “rəngli inqilab”ı maliyyələşdirdiyi haqqında yazırlar. Deməli, münaqişənin həllini dalana dirəyən N.Paşinyana həmsədr ölkələrdən biri yardım edib və edir. Buna nə ad vermək olar? Və Vaşinqton sözdə deyilməsinə baxmayaraq, nə dərəcədə münaqişənin həllində obyektiv, ədalətli və tərəfsiz ola bilər?

Gələk Fransaya. Bu ölkənin Prezidenti Emmanuel Makron açıq deyir ki, “fransızlarla ermənilər qohumdurlar”. Bundan başqa, Fransa yeganə Avropa ölkəsidir ki, qondarma “erməni soyqırımı”nı inkar edənləri həbs edir. Ermənistan Frankofoniya məkanına daxil olan ölkə kimi təqdim olunur. Fransa erməni diasporuna hər cür dəstəyi verir. Fransa Ermənistanı danışıqlar zamanı aktiv müdafiə edir. Xatırlayaq ki, erməni prezidentlər danışıqlarda hər hansı bir böhran yaranan kimi Parisə üz tuturlar. Tovuz hadisələrindən sonra da rəsmi Paris ağzına su alıb durur. Əvəzində, Türkiyənin geosiyasi fəaliyyətinə qısqanclıqla yanaşdığını ifadə edən addımlar atır. Belə bir həmsədr hansı dərəcədə ədalətli və obyektiv ola bilər? Mümkün deyildir!

Nəhayət, Rusiya. Hələ 1997-ci ildə Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxdı. O zaman Dövlət Dumasının qapalı iclasında mərhum general Lev Roxlin Cənubi Qafqazdakı vəziyyətlə bağlı məruzəsində bildirmişdi ki, yeni silahlar Ermənistana göndərilir. Sənədlərdə yazılır ki, həmin silahlar ucuz qiymətə silinir. Bu prosesə Ermənistan müdafiə nazirinin xarici hərbi əlaqələr üzrə müavini general-mayor A.Stepanyan rəhbərlik edirmiş. Azərbaycan Rusiyanın Ermənistana silah verməsi ilə bağlı narahatlığını Moskvaya dəfələrlə bildirməsinə baxmayaraq, Kreml tam laqeyd münasibət göstərmişdi. Onu da qeyd edək ki, bu silahlar 1993-cü ildən etibarən göndərilməyə başlamışdı. General L.Roxlinə gəldikdə isə, 3 iyul 1998-ci ildə onu Moskva yaxınlığındakı bağ evində qətlə yetirdilər. Qatil isə hələ də “tapılmayıb”...

Buna bənzər çoxlu misallar göstərmək olar. Lakin hamı bilir ki, Rusiya Ermənistana havadarlıq edir, ona silah satır, müxtəlif yardımlar göstərir, özünün yaratdığı regional təşkilatlara daxil edir. Kreml istədiyi halda Ermənistan rəhbərliyini geosiyasi şərtlərə əməl etməyə məcbur edir. Bir sözlə, Ermənistan aciz forpost kimi Rusiyanın oyuncağı olaraq qalır. Və bu halda belə Ermənistan Dağlıq Qarabağ məsələsində Rusiyanı “eşitmir” (Bəşər Əsəd də Suriyada Moskvanı “eşitmir”, lakin siyasətə gələndə, Kremldə deyirlər ki, Suriyanı Rusiya xilas edib). Ermənilər danışıqları pozur, lakin Rusiyanın onu yola gətirməyə “gücü çatmır” və s.

İndi Tovuz hadisələrindən də Rusiyanın “xəbəri olmayıb” və münaqişə edənlərə “dava salmayın” tövsiyəsini verir. Kreml bununla kifayətlənmir - Ermənistana iyulun 17-dən avqustun 4-dək 400 tondan artıq silah-sursat göndərilib. Kimə qarşı? Əlbəttə, Azərbaycana qarşı. Buna görədir ki, Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə telefon söhbəti zamanı bu məsələnin aydınlaşdırılmasını istəyib. Və Azərbaycan cəmiyyətini Rusiyanın bu cür hərəkətləri narahat edir. Təəssüf ki, bu aspektdə vəziyyət əvvəlki kimi qalır və Moskvanın obyektiv, ədalətli mövqe tutmasına ümid edilir.

## Türkiyə-Azərbaycan əməkdaşlığı: regionun sabitliyi və tərəqqisi naminə...

Digər geosiyasi aspekt Türkiyənin regionda fəallığı ilə bağlıdır. Türkiyə Tovuz hadisələri zamanı birmənalı olaraq Azərbaycanı müdafiə etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin bütün imkanları ilə Azərbaycanın yanında olduğunu bəyan etdi. Bunu Ankara konkret əməldə də göstərdi. Azərbaycana lazım olan dəstək hərbi, siyasi və diplomatik kanallarla göstərildi. Türkiyə Prezidenti Rusiya rəhbərliyi ilə vəziyyəti açıq müzakirə etdi və sabitliyin təmini ilə bağlı ortaq qənaət əldə edildi. Rusiya ilk dəfə etiraf etdi ki, Cənubi Qafqazda Türkiyənin maraqlarının olduğunu qəbul edir. Bu, ciddi siyasi-diplomatik uğur idi. Rəsmi Bakı da kifayət qədər qətiyyət və inamla addımlar atdı. Prezident İlham Əliyev Ermənistanı təkbətək döyüşə çağırdı. İrəvandan səs çıxmadı. Havadarları da susdu. Deməli, bilirlər ki, Azərbaycan həm haqlı, həm də güclüdür. Maraqlıdır ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov açıq etiraf etdi ki, təxribatı Ermənistan törədib və buna görə məsuliyyət daşıyır. Bu, erməni diplomatiyasına güclü zərbədir. Və həm də Moskvanın Cənubi Qafqaz siyasətində dəyişiklik edə biləcəyindən xəbər verir.

Bunların fonunda Türkiyə-Azərbaycan əməkdaşlığı və hərbi təlimləri daha möhtəşəm görünür. Bu kontekstdə Prezident İlham Əliyevin aşağıdakı fikri dolğunluğu və strateji mənası ilə olduqca möhtəşəm səslənir. Dövlət başçısı ifadə edib: “Əminəm ki, yaxın zamanlarda Türkiyə bütün başqa sahələrdə olduğu kimi, hərbi-texniki əməkdaşlıq sahəsində də bizim üçün bir nömrəli tərəfdaş olacaqdır. Bildiyiniz kimi, həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir... Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da qətiyyətlə ifadə edib ki, qardaş Azərbaycana bütün imkanları ilə dəstək verirlər və bu, davam edəcək. Türkiyə Ordusu Azərbaycanın ixtiyarındadır. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın da bu bağlılıqda fikirləri olduqca maraqlıdır. Türkiyəli nazir deyib: “Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkələrimizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq. Digər tərəfdən, haqqımızın, hüququmuzun, mənafelərimizin də tapdalanmasına imkan verməyəcəyimizi, bunların qorunması üçün lazım olan nə varsa edəcəyimizi hamının bilməsini istəyirik”.

Yuxarıda vurğulananları ümumiləşdirib bir neçə nəticə çıxara bilərik. Hər şeydən öncə, Ermənistan və onun güclü havadarları bir daha əmin oldular ki, Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü Ordudur. Qısa bir müddətdə Tovuz istiqamətində Ermənistanın çoxlu sayda hərbi texnikasını, silahını və canlı qüvvəsini dəqiq zərbələrlə məhv edən bir Ordunun qarşısında dayana bilməzlər. Həmin mənada Tovuz hadisələri təcavüzkara və ona arxa duranlara yeni bir xəbərdarlıqdır. Digər tərəfdən, aydın oldu ki, ATƏT-in Minsk qrupu indiki vəziyyəti ilə münaqişəni həll etmək iqtidarında deyil. Bu format ya təkmilləşməli, ya da buraxılmalıdır. Azərbaycan artıq danışıq xatirinə danışmayacaq. Real nəticəli müzakirələrə istiqamətlənəcək. Son zamanlar Azərbaycan rəhbərliyi və XİN-in fəaliyyəti də bu qənaəti tam təsdiq edir.

Bunlardan başqa, o da aydınlaşır ki, ABŞ, Fransa və Rusiya Cənubi Qafqazdakı fəaliyyətlərinə düzəliş etməyə məcburdurlar. Başqa halda onların burada öz nüfuzlarını qoruması böyük risk altında qalmış olur. Regiondakı münaqişələrin həllinə ədalətli və obyektiv yanaşmaqdan başqa yol qalmayıb.

Nəhayət, bir daha təsdiq olundu ki, Cənubi Qafqazda geosiyasi sabitliyin qarantı Türkiyə-Azərbaycan əməkdaşlığıdır. Bu iki qardaş dövlət beynəlxalq hüquq normaları çərçivəsində sülh, barış, əməkdaşlıq və inkişafın olması tərəfdarıdırlar. Bu səbəbdən də Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşəcəyini və genişlənəcəyini proqnozlaşdırmaq olar. Bu, bütün region xalqlarının rifahı üçün olduqca əhəmiyyətli haldır!

***Kamal Adıgözəlov***
***Newtimes.az***

# Misir portalı Ermənistanın təcavüzkar siyasətindən yazıb

*Misirin "Rayetmisr" xəbər portalı jurnalist Məhəmməd Rəfat Fəraqın Ermənistanın hərbi təcavüzündən bəhs edən məqaləsini yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Cənubi Qafqaz regionunda sülhə və sabitliyə təhdid olduğu, işğalçı siyasətini davam etdirdiyi tutarlı faktlarla əsaslandırılıb. Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistan rəhbərliyinin bolşeviklərə xas formada silahlı birləşmələr yaratmaq, bu birləşmələrdən öz çirkin məqsədləri üçün, o cümlədən ölkədaxili məsələlərdə istifadə etmək istədiyi, eyni zamanda, Ermənistanın müxtəlif ölkələrdən olan muzdluları ön xətdə yerləşdirdiyi, onlar öləndə isə bu faktları gizlətdiyi barədə fikirlərinə yer verib.*




Məqalədə vurğulanıb ki, Azərbaycan rəsmisi Tovuz hadisələrinin Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca törətdiyi hərbi avantüra olduğunu və Azərbaycan silahlı qüvvələrinin rəşadətli cavabları çərçivəsində onların o xətti şəxsi heyətlə komplektləşdirə bilmədiyini, ona görə də Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindən şəxsi heyəti, həmçinin Yaxın Şərq ölkələrindən olan muzdlu insanları ön xətdə yerləşdirməyə çalışdığını vurğulayıb. Prezidentin köməkçisi onu da qeyd edib ki, Ermənistan Suriyada münaqişədə iştirak edir, həmin ölkədə şəxsi heyəti var. Bundan başqa, Ermənistan Suriyadan silahların alınması ilə bağlı "qara ticarət"lə məşğuldur.

# ABŞ-ın radiolarının birində Ermənistanın Azərbaycana qarşı təxribatları müzakirə edilib



ABŞ-da geniş nüfuza malik və Nyu-Yorkdan bütün Amerika ərazisinə yayımlanan Con Batçelor Şou radio proqramında Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanovla müsahibə yayımlanıb. SİA AZərbaycan Respublikasının ABŞ-dakı səfirliyinə istinadən xəbər verir ki, müsahibədə son zamanlar Yaxın Şərqdə normallaşma proseslərinin məhz Azərbaycanın nümunəsinə əsaslanması qeyd olunub.

Con Batçelor Azərbaycana etdiyi səfərlər çərçivəsində ölkəmizdə bütün xalqlar, o cümlədən yəhudilərin sülh və dostluq şəraitində yaşamasının, antisemitizmin müşahidə olunmamasının, burada yəhudi icmalarına göstərilən diqqət və qayğının, onların öz dini etiqadlarını sərbəst şəkildə yerinə yetirmək azadlıqlarının canlı şahidi olduğunu bildirmiş və bunu digər ölkələrə örnək kimi təqdim edib. Səfir Süleymanov yəhudilərin ölkəmizdə yüzilliklər boyu yaşamasını xatırladaraq, burada onlara qarşı nəinki dözümlülük nümayiş etdirildiyini, onlara cəmiyyətin ayrılmaz parçası olaraq dəyər verildiyini diqqətə çatdırıb. E.Süleymanov qeyd edib ki, İsrail mətbuatında da Azərbaycanın nümunəsi davamlı olaraq işıqlandırılır.

Daha sonra, Con Batçelor son zamanlar Rusiyanın Ermənistana hərbi yük daşımaları ilə bağlı sual ünvanlayıb və bu məsələ ilə əlaqədar Azərbaycan tərəfinin narahatçılığı ilə mətbuatdan tanış olduğunu bildirib. Öz növbəsində səfir Elin Süleymanov Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində danışıqlarda Minsk Qrupunun həmsədri qismində Rusiyadan ədalətli mövqe gözlənildiyini bildirib. Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Rusiyaya rəsmi səfəri çərçivəsində rusiyalı həmkarı Sergey Lavrovla görüş zamanı məsələ ilə bağlı Azərbaycan tərəfinin narahatlığını diqqətə çatdırdığını, Azərbaycanın sülh prosesinə sadiqliyini və substantiv danışıqlardan real nəticələr gözlənildiyini bəyan etməsini xatırladıb. Səfir Azərbaycanın bu yanaşmasının Rusiya tərəfindən dəstəkləndiyini bildirib. Lakin buna baxmayaraq, Rusiyadan yük təyyarələrinin Ermənistana hərbi təchizat daşımasının müşahidə olunduğunu, Rusiya müdafiə nazirinin ölkəmizə səfəri zamanı bu təyyarələrin tikinti materialları daşımasını iddia etməsini bildirib. Rusiyadan və İran hava məkanından keçərək Ermənistana tikinti materiallarının daşınması izahatının qənaətbəxş olmadığını qeyd edib. Səfir ölkə Prezidenti İlham Əliyevin və Prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevin məsələ ilə bağlı açıq şəkildə narahatlığına istinad edərək, Rusiya tərəfinin məsələyə tam aydınlıq gətirəcəyinə və Minsk Qrupu həmsədri kimi obyektiv vasitəçi kimi fəaliyyət göstərəcəyinə ümid etdiyini bildirib.

Müsahibə zamanı Con Batçelor Ermənistanın məhz Tovuz istiqamətində Azərbaycanın hərbi qulluqçuları və mülki əhali arasında itki olduğunu bildirərək, Ermənistanın hücumunun Cənub Qaz Dəhlizinə təhdid yaratmaq məqsədi daşıyıb-daşımadığını sorğu edib. Səfir Süleymanov erməni təxribatınının məhz bu ərazidə olmasının aydın şəkildə qlobal enerji təhlükəsizliyinə töhfə verən layihələrə təhdid yaratmaqla, ümumi regionun rifahına zərbə vurmaq məqsədi daşıdığını, eləcə də Ermənistanın özünə ziyanlı olduğunu qeyd edib.

Müsahibə ilə https://audioboom.com/posts/7673713-why-is-russia-arming-armenia-what-is-to-be-done-elinsuleymanov-azembassyus internet səhifəsindən tanış olmaq mümkündür.

## "Həmsədrlərin çıxışları kağız üzərində qalmamalıdır"



"Ermənistanın işğal etdiyi ərazilərimizdəki su ehtiyatlarından cəbhə xəttinə yaxın bölgələrdə yaşayan azərbaycanlı əhaliyə qarşı ekoloji terror vasitəsi kimi istifadə etməsi ilk hal deyil". BunuSİA-ya millət vəkili Arzu Nağıyev deyib.

Deputatın sözlərinə görə, ermənilər artıq tam şəkildə Azərbaycanın işğal olunmuş ərazilərində təhlükəsizliyə mühüm təhdidlər edirlər. Bu həm ekoloji, hərbi, etnik, həm də digər dövlətlərdən terrorist təşkilatlarını müxtəlif milli, etnik qruplar adından gətirib yerləşdirmələridir. Son vaxtlar da təkcə işğal olunmuş ərazilərimiz istiqamətində deyil, bir sıra rayonlarda Tovuzda, Ağstafada və digər istiqamətlərdə işğalçı Ermənistan su mənbələrinin qarşısını almağa çalışır. Bu birmənalı şəkildə aparılan hibrid müharibənin bir elementidir. Bunu ermənilər işğal olunmuş ərazilərdə Azərbaycan qarşı istifadə edirlər. Bu barədə ATƏT-in Minsk Qrupunun həmsədrləri dəfələrlə çıxış ediblər. Amma buna baxmayaraq hesab edirəm ki, bütün bunlar kağız üzərində qalmamalıdır. Bunun bir icra mexanizmi olmalıdır. Ermənilər sərhədyanı rayonlarda əkin-biçin vaxtı ərazilərimizi atəşə məruz qoyurlar və suvarma sistemlərinin qarşısını kəsirlər. Bu ermənilər tərəfindən azərbaycanlılara qarşı tətbiq olunan həmin o təhdidlərdir. Bunu da qarşısının alınması üçün ATƏT-in Minsk Qrupunun həmsədrləri səviyyəsində yeni bəyanatlar verilməlidir və verdiyi bəyanatlara hörmətlə yanaşaraq icrasını həyata keçirməlidir".

# "Bakı-Xəbər" qəzetinin 17 yaşı tamam oldu




Azərbaycan mediasında öz dəsti-xətti ilə seçilən "Bakı Xəbər" qəzetinin 17 yaşı tamam olur. 2003-cü il sentyabrın 4-də oxucularına ilk buraxılışını təqdim edən "Bakı Xəbər" daim obyektiv və tərəfsizliyini qoruyub saxlamaqla Azərbaycanın ictimai, siyasi, sosial və mədəni həyatında olan yeniliklərlə bərabər, dünyada baş verən maraqlı xəbərləri mütəmadi olaraq oxucularına çatdırıb və bu gün də bu müqəddəs missiyanı uğurla yerinə yetirir. "Bakı Xəbər" qəzeti həmçinin müxtəlif sahələrdən bəhs edən müsahibələr, təhlillər, reportajlar, müəllif yazıları ilə oxucuları hər zaman maarifləndirir. Qəzet xeyli müddətdir ki, dizaynında, tərtibatında, formatında dəyişikliklər edib və rəngli formatda, vizual baxımdan daha maraqlı, cəlbedici formatda oxucuların görüşünə gəlir. Bakı Xəbər-in kollektivi TV, Bakı-Xəbər media qrupunun rusca variantı ilə də mediamıza yeni töhfə verib.

"SƏS" Media Qrup "Baki-Xəbər" qəzetinin 17 yaşı münasibətilə baş redaktor Aydin Quliyevi və butun kollektivi təbrik edir, onlara yeni yaradıcılıq uğurları arzulayır.

# Tarif Şurasından "Gediş haqqı" ilə bağlı açıqlama



Bəzi kütləvi informasiya vasitələrində ictimai nəqliyyatda şəhərdaxili avtobus marşrutlarında sərnişindaşıma xidməti üzrə tariflərin artırılması ilə bağlı məlumatlar yayılır. SİA xəbər verir ki, bu barədə Tarif (Qiymət) Şurasının açıqlamasında bildirilir. Məlumatda həmçinin deyilir ki, şəhərdaxili ictimai nəqliyyatda sərnişindaşıma xidməti üzrə tariflərin artırılması ilə bağlı Şuraya müraciət edilməyib və hazırda bu sahədə tarif tənzimlənməsinin aparılması məsələsi müzakirə olunmur. Xatırladaq ki, Tarif (Qiymət) Şurasının 30.07.2018-ci il tarixli qərarına əsasən, ictimai nəqliyyatda şəhərdaxili sərnişindaşıma xidməti üzrə tarif bir gediş üzrə 30 qəpik, şəhərətrafı və qəsəbələrarası sərnişindaşıma xidməti üzrə isə tariflər məsafədən asılı olaraq təsdiq edilib.

# “Koronavirusla mübarizədə müsbət dinamika düşünülmüş dövlət siyasətinin məntiqi nəticəsidir”

***Bu gün dünyanın əsas bəlası, eyni zamanda mövzusu olan koronavirus pandemiyası həm də yeni təcrübələr yaratdı. Müharibələr, çətin vəziyyətlər adamları da, dövlətləri də tanımağa imkan verir. Belə vəziyyətlərdə ilk şərtlərdən biri panikaya məğlub olmamaq, bəlanın miqyasını real qiymətləndirmək, çevik idarəetmə ilə operativ və düzgün qərarlar qəbul etməkdir. Soyuqqanlı və təcrübəli olmaq həmişə işə yarayır.***



Elə dövlət başçısının çevik və düşünülmüş addımlarının nəticəsidir ki, bu gün Azərbaycan bu bəladan da uğurla qurtulmaqdadır. Yaranmış mövcud durumda Azərbaycan dövləti bütün çətinliklərin öhdəsindən gələ bilir, müvafiq, adekvat addımlar atılır. Ən mühüm olan budur və təkcə xalqımız yox, həm də dünya dövlətləri də faktiki olaraq ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi böyük islahatların faydalı nəticələrini görür. “Caspian Group Holdings”in baş direktoru, amerikalı ekspert Rob Sobhani deyib ki, Azərbaycan bir çox ölkələr üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir. Göründüyü kimi, xalqımız öz lideri ilə qürur və fəxr etməyə böyük haqqı var.

Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının reallığıdır. Avqustun 31-də Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalın açılışında tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşü zamanı dövlət başçısı karantin pandemiyası dövründə vəziyyətə uyğun şəkildə həyata keçirilən işlərdən danışaraq bildirdi ki, qısa müddət ərzində normal həyata qayıdılıb. Prezident İlham Əliyev cənabları pandemiyanın ilk günlərindən insanların sağlamlığı prioritet məsələ olduğunu, bu gün də bütün səylərin bu məsələnin həllinə istiqamətləndirildiyini hamıdan da bu sahədə daha məsuliyyətli olmağı tələb edib və bu gün də tələb edir. Dövlət başçısı dəfələrlə bildirib ki, Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımların nəticəsində öz səmərəsini verməsinə arxayınlaşmaq olmaz, vətəndaşlarımız məsuliyyətli olmağı unutmamalıdırlar.

Göründüyü kimi, məhz bunun nəticəsidir ki, karantin rejimi öz səmərəsini verir və bunun nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyəti aradan qaldırılıb. Bu dövlət başçımızın dediyi kimi, ancaq və ancaq hər addımlarımızı ehtiyatlı atmalı, məsuliyyətli olmalıyıq.

### “Qanun hər kəs üçün qanundur, heç kim qanundan üstün ola bilməz”

Dövlət başçısı 17 illik prezidentlik müddətində hər bir kəsdən öz işində ancaq məsuliyyətli olmağı tələb edib. Prezident İlham Əliyev keçirilən görüşdə də bir daha bu məsələyə toxunaraq bildirdi ki, əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır və heç bir ayrı-seçkiliyə yol verilmədən belələrinə qarşı cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Çünki Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və ictimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir. Dövlət başçısı vidiofarmatda keçirilən görüşdə də bildirdi ki, qanun hər kəs üçün qanundur: “Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək”.

### Düşünülmüş siyasət, uğurlu nəticələr...

Görülən işlər bunun təsdiqidir. Prezident İlham Əliyev avqustun 31-də Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalın açılışında tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşü zamanı dövlət başçısı karantin pandemiyası dövründə vəziyyətə uyğun şəkildə həyata keçirilən işlərdən danışaraq bildirdi ki, ölkəmiz qısa müddət ərzində normal həyata qayıdıb. Prezident pandemiyanın ilk günlərindən insanların sağlamlığının prioritet məsələ olduğunu, bu gün də bütün səylərin bu məsələnin həllinə istiqamətləndirildiyini, hamıdan da bu sahədə daha məsuliyyətli olmağı tələb edib. Nəticə göz qabağındadır. Görülən bütün işlər öz səmərəsini verir. Prezident İlham Əliiyev çıxışı zamanı bildirdi ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir və bu müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaq. Dövlət başçısının tapşırığına uyğun olaraq son 17 ildə 46 xəstəxananın istifadəyə verilməsi, laboratoriyaların sayının 45-ə çatdırılması pandemiya dövründə Azərbaycan vətəndaşlarının müalicəsi istiqamətində çox böyük rol oynadı. Həmin laboratoriyalarda 900 mindən çox testin keçirilməsi, modul tipli xəstəxanaların açılması, adambaşına düşən testlərin sayına görə Azərbaycanın dünya miqyasında qabaqcıl yerlərdən birini tutması və əldə edilmiş digər uğurlar Prezident İlham Əliyevin 6 ay ərzində COVID-19-la mübarizədə atdığı addımların məntiqi nəticəsidir. Bu, həm də Azərbaycan dövlətinin dünyada pandemiyanın problemlərini tezliklə aradan qaldırmağa verdiyi dəstəyin ifadəsidir. Həmçinin, hesab edirəm ki, Azərbaycanda pandemiya dövrünün çağırışları fonunda qısa müddətdə tibbi maska fabrikinin yaradılması və istehsala başlaması, məhsullarını xalqa çatdırması da koronavirusla mübarizə dövrünün yaddaqalan hadisəsidir. Dünyanın qoruyucu maska qıtlığı çəkdiyi bir şəraitdə maska istehsalının təcili təşkil edilməsi respublikamızda çevik iqtisadi mühitin formalaşdığının əyani göstəricisidir. Ən əsası isə bu, koronavirusla mübarizədə Azərbaycan dövlətinin öz vətəndaşlarının sağlamlığına göstərdiyi həssas münasibətin və real qayğının əməli ifadəsidir. Hesab edirəm ki, tibb sahəsində, hərbidə, mülki müdafiə sistemində, akademik laboratoriya mühitində daim ehtiyac hiss olunan maska istehsalı pandemiya dövründən sonra da davam etdiriləcək, yerli tələbatın ödənilməsinə xidmət göstərəcəkdir. Beləliklə, pandemiya dövründə Azərbaycanda yeni bir istehsal müəssisəsinin də əsası qoyulmuşdur.

Son günlərin hadisələri və qərarları aydın surətdə göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizi postpandemiya dövrünə hazırlaşmaq istiqamətində də vaxtında və məqsədyönlü iş aparmaqdadır. Heç şübhəsiz, postpandemiya dövrünün reallıqları və çağırışları qarşıdakı illərin yeni tipli iqtisadi münasibətlərini də diktə edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin karantin rejiminin mərhələli şəkildə yumşaldılması haqqındakı qərarı əhalinin qarşıdakı yeni iqtisadi və mənəvi mühitə adaptasiya olunması baxımından əhəmiyyətli olduğu qədər ən müasir çağırışlara istiqamətləndirilməsi cəhətdən də faydalıdır.

Hesab edirik ki, çətin və məsuliyyətli pandemiya dövründə respublikamızda xalqın demək olar ki, bütün təbəqələri arasında yaranmış birlik və həmrəylik Prezident İlham Əliyevin ardıcıl dövlət siyasətinin əsasında qazandığı uğurların möhtəşəm yekunudur.

Koronavirusla mübarizənin davam etdirilməsi və başa çatdırılması üçün karantin vaxtının uzadılması da ölkəmizdə bu ağrılı prosesdən minimum itkilərlə çıxmaq üçün vaxtında qəbul edilmiş növbəti düzgün qərardır. Həmçinin artırılmış karantin dövrü həm də postpandemiya mərhələsinə hazırlıq üçün də əlavə imkanlar yaratmağa xidmət edəcəkdir. İnanırıq ki, Azərbaycan Prezidentinin rəhbərliyi altında koronavirusla mübarizə dövründə olduğu kimi, postpandemiya mərhələsində də taleyüklü, məsuliyyətli vəzifələr uğurla həyata keçiriləcək, xalqımız daha xoşbəxt sabahlara qovuşacaqdır.

***İSA HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***akademik, millət vəkili***

# Anna Akopyanın növbəti provokasiyası



“Anna Akopyanın təşəbbüssü ilə erməni qadınlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində hərbi təlim keçmələri müharibəyə açıq çağırışdır. Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı, “Qadınlar sülh uğrunda” təşkilatının müəllifi Anna Akopyanın təşəbbüssü ilə erməni qadınlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində hərbi təlim keçmələri müharibəyə açıq çağırışdır”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib.

Deputat bildirib ki, əslində tətiyin kimə tərəf tuşlandığı aydındır və illərdir Azərbaycana qarşı hərbi təxribatlar törədən Ermənistanın müharibə iştahasının gündən günə artmasının səbəbləri də bəllidir: “Bundan əvvəl sülh çağırışları edən və öz cinayətkar əməllərinə qurban gedən insanlar üçün göz yaşı axıtmaqdan belə utanmayan Anna Akopyanın qadınları hərbi təlimlərə cəlb etməsi növbəti provokasiyadır. Qadınları qan tökülməsinin və müharibənin qarşısına sipər çəkməyə səsləmək əvəzinə, hərbi əhval ruhiyyəyə yükləməsi Paşinyan ailəsinin mahiyyətini ortaya qoyur. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarından öz ordularını çıxarmaq əvəzinə qadınları da hərbiləşdirmək planları Ermənistanın işğalı möhkəmləndirməkdə israrlı olduğunu bir daha göstərir. Adı siqaret qaçaqmalçılığında hallanan A.Akopyanın Dağlıq Qarabağda “vətənpərvər” çıxışlar etməsi son günlər özü və qardaşı haqda yayılan xəbərlərdən ictimai diqqəti yayındırmaq məqsədi güdür”.

S.Mikayılova vurğulayıb ki, Nikol Paşinyan hakimiyyəti altında ölkənin məqsədli silahlanması və hərbi bloklara cəlb edilməsi həm də, Ermənistanı gələcəkdə məkrli geosiyasi planların iştirakçısına çevirmək arzusundan doğur: “Ölkədaxili vəziyyətin kritik olması, siyasi həbslər, hakim ailənin üzvlərinin qaçaqmalçılıq və digər qeyri-qanuni əməllərdə hallanması və bütün bunların fonunda Paşinyanın sürətlə düşən reytinqi sözsüz ki, ölkənin siyasi elitasını milli maraqları kənara qoyaraq, şəxsi maraqlardan çıxış etməyə vadar edir. A.Akopyanın sülhə zərbə vuran belə hərəkətləri hiddət doğurur və sülh əvəzinə hərb toxumları səpmək niyyətini sərgiləyir”.

***Aysel Məmmədova***

## Azərbaycanda iqtisadiyyatın orta illik artım tempi 3,7 faiz təşkil edəcək

Növbəti dörd il ərzində Azərbaycan iqtisadiyyatının orta illik artım tempinin 3,7% təşkil edəcəyi proqnozlaşdırılır. SİA xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin Azərbaycanın 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasına istinadən xəbər verir.



Proqnoza görə, ölkədə ÜDM istehsalı 2021-ci ildə 3,4%, 2022-ci ildə 4,8%, 2023-cü ildə 3,7%, 2024-cü ildə isə 3,1% artacaq.

Qeyri-neft ÜDM-in də artımı gözlənir. Belə ki, sözügedən sektorda ÜDM istehsalının artımı 2021-ci ildə 3,5%, 2022-ci ildə 4,1%, 2023-cü ildə 3,5%, 2024-cü ildə isə 3,6% təşkil edəcəyi gözlənilir. Göründüyü kimi, 2021-2024-cü illərdə qeyri-neft ÜDM-i də orta hesabla 3,7% artacağı gözlənilir.

# Dağlıq Qarabağın azərbaycanlı icmasından Avropa Şurasına məktub



Təcavüzkar Ermənistan işğal etdiyi ərazilərimizdəki su ehtiyatlarından cəbhə xəttinə yaxın bölgələrdə yaşayan azərbaycanlı əhaliyə qarşı ekoloji terror vasitəsi kimi istifadə edilməsini daha da gücləndirir. SİA-nın məlumatına görə, bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avropa Şurasının rəhbərliyinə Ermənistanın bu məkrli siyasətini ifşa edən məktub ünvanlayıb.

Məktubda Ermənistanın işğalı altında olan yuxarı Qarabağ bölgəsindən axan çayların qarşısını məqsədli şəkildə süni bəndlərlə kəsməsi, eləcə də Sərsəng su anbarından aşağı Qarabağ istiqamətində qanunsuz kanalların inşa edilməsi məsələləri öz əksini tapıb. Vurğulanıb ki, təcavüzkar Ermənistan su resurslarını təzyiq vasitəsi kimi istifadə edərək çayların aşağı axarlarında məskunlaşmış əhalinin təsərrüfatla məşğul olmasını faktiki mümkünsüz etmişdir. Belə ki, qış aylarında xüsusilə Sərsəng su bəndinin qarşısı açılaraq, təsərrüfata yararlı torpaqlar süni selləerroziyaya məruz qoyulur. Yay aylarında - təsərrüfat suyuna ehtiyacın ən çox olduğu dövrdə - təcavüzkar Ermənistan suyun qarşısını kəsərək süni quraqlıq yaradır və beləliklə, kənd təsərrüfatına, eləcə də flora və faunaya ciddi zərbə vurur.

Məktubda Avropa İnsan Haqları Məhkəməsinin 2015-ci il "Çıraqovlar və digərləri Ermənistana qarşı" məhkəmə işinin yekun qərarına və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2016-cı il tarixli, 2085 saylı "Cəbhə bölgələrindəki azərbaycanlı əhali sudan məqsədli şəkildə məhrum edilir" başlıqlı qətnaməsinə istinad edilərək, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozması ifşa edilib. Son olaraq məktubda, AŞPA baş verənləri yaxından izləməyə, eləcə də Ermənistanın bütün bölgəni humanitar və ekoloji fəlakətə aparan bu məkrli davranışlarına dərhal son qoyması üçün təxirəsalınmaz addımlar atmağa çağırılıb.

# İstanbul Türkiyə-Azərbaycan Dərnəyi Ermənistanın qanunsuz məskunlaşdırma siyasətinə etiraz olaraq bəyanat yayıb

***Son zamanlar işğalçı Ermənistan tərəfindən Azərbaycana qarşı edilən təxribatlar, o cümlədən Suriyadan sonra Livandan olan ermənilərin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilməsi cəhdi yolverilməzdir. Artıq uzun illərdir Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır. İşğal altındakı bu torpaqlarda ermənilər tərəfindən törədilən cinayətlər hər kəsə bəllidir. Dünya ölkələri birləşərək dərhal bu işğala son verilməsini tələb etməli, tarixi Azərbaycan torpaqları geri qaytarılmalıdır.***

AZƏRTAC xəbər verir ki, bu fikirlər İstanbul Türkiyə-Azərbaycan Dərnəyi (İSTAD) tərəfindən Ermənistanın qanunsuz məskunlaşdırma siyasəti ilə bağlı yayılmış bəyanatda öz əksini tapıb.

İSTAD-ın rəhbəri Səfər Qaraqoyunlunun imzası ilə yayılan bəyanatda deyilir: "Təəssüflər olsun ki, Ermənistan hələ də öz işğalçılıq siyasətini davam etdirir. Beynəlxalq təşkilatların işğal olunmuş Azərbaycan torpaqlarından çıxması ilə bağlı verdiyi qərarlara məhəl qoymayan Ermənistan tarixi Azərbaycan torpaqlarında qanunsuz fəaliyyətlərini davam etdirir. Bu qanunsuzluqlardan biri də Suriyadan sonra Livandan olan ermənilərin bu ərazilərə yerləşdirilməsi cəhdidir. Ermənistanın bu hərəkətləri beynəlxalq hüquqa, eləcə də 1949-cu il Cenevrə Konvensiyasına və onun əlavə protokollarına ziddir. Lakin buna baxmayaraq ermənilər öz təxribatçı əməllərindən hələ də əl çəkmirlər. Bəzi xarici qüvvələrin dəstəyi ilə Ermənistan dünyanın gözü qarşısında işğalçı mövqeyini davam etdirir. Bu, yolverilməzdir. Azərbaycana, o cümlədən bütün türk dünyasına qarşı edilən bu haqsızlığa göz yumanları şiddətlə qınayırıq. Azərbaycan ərazilərinin işğalı, eyni zamanda, bölgədə sülhü və sabitliyi təhlükə altıda saxlayır. Bu münaqişənin yeganə həlli Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini dərhal və qeyd-şərtsiz tərk etməsidir. Onlar bilməlidirlər ki, türk millətinin səbiri tükənir, artıq "yetər, bəsdir" deyilən nöqtədəyik".

# Xeyirxah və qayğıkeş el adamı



Hər bir bəşər övladının həyat tarixçəsi nəinki, onu tanıyanların, eləcə də, cəmiyyət üçün maraqlı olur. O mənada ki, insan yaşadığı həyatda yardım və xeyirxah əməlləri ilə tanınmayıbsa deməli ömrünü boş yerə keçirib. Çünki, insan Allahın ona bəxş etdiyi ömrü doğru-düzgün yaşamalı, xeyirxah, elinə-obasına, dövlətinə bağlı, ədalətli mövqeyi və fəaliyyəti ilə seçilməlidir.

Etiraf olunmalıdır ki, bu cür insanı keyfiyyətlərə və dəyərlərə ucalmaq çətindir. Amma belə qiymətli, xeyirxah insanlar var və nə yaxşı ki, yaşadığımız cəmiyyətimizdə onların sayları kifayət qədər çoxdur. Bələlərindən biri də, tanınmış ictimai xadim, sədaqətli dövlət adamı Binəqədi rayon icra hakimiyyətinin Biləcəri qəsəbə nümayəndəliyinin baş məsləhətçi-mühəndisi Osman Qasımovdur. 62 illik ömrünü yaşayan Osman müəllimin keçdiyi ömür yoluna nəzər yetirmək kifayətdir ki, onun necə yüksək mənəviyyatlı, vətənpərvər, xeyirxah, həm də Prezidentimizə sədaqətliyi, xalqımıza və dövlətimizə bağlılığı ilə seçilən insan olduğunu görmək olar. Osman Qasımov prinsipiallığı və əzmkarlığı, təşkilatçılıq və idarəçilik keyfiyyətləri sayəsində onlarla gənc cəmiyyətimizdə layiqli yer tutmuş və ölkənin ictimai həyatında, müxtəlif idarəetmə sahələrində fəal iştirak etməkdədirlər.

Bu gün Biləcəri qəsəbəsində kimə yaxınlaşsan, kiminlə həmsöhbət olsan Osman Qasımovdan razılıqlarını ifadə edər, onun sadə, təvüzkar insan olduğunu söyləyər. Osman müəllimin müsbət keyfiyyətlərə malik olması onu nəinki, Biləcəri qəsəbə sakinlərinin, eləcədə onun fəaliyyətinə hər zaman yüksək qiymət verən rayon icra hakimiyyəti rəhbərliyinin, həmçinin iş yoldaşlarının sevilmisinə çevirib. İş yoldaşları əqidə bütövlüyü, məslək saglığı, mənəviyyat təmizliyi ilə seçilən və tanınan Osman Qasımovu kamillik və müdriklik zirvəsinə yüksəlməsi münasibəti ilə təbrik edir, ona uzun ömür, sağlam və təhlükəsiz ömür arzulayırlar.

# 4 min nəfər əlilliyi olan şəxs öz ailə təsərrüfatını yaradıb



Son illərdə özünüməşğulluq proqramı çərçivəsində 4 min nəfər əlilliyi olan şəxs öz ailə təsərrüfatlarını yaradıb. SİA xəbər verir ki, bu istiqamətdə, həmçinin əlilliyi olan şəxslərin əmək bazarına və kiçik biznesə çıxış imkanlarının artırılması, onlar üçün xüsusiləşdirilmiş peşəyönümü testləri, müasir modul təlim proqramları və peşə standartlarının hazırlanması məqsədilə işlər davam etdirilir. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Prezidenti Yoakim Bröyer ilə videoformatda görüşündə bildirib.

Azərbaycanda aparılan siyasətin əsas xəttinin vətəndaş rifahının təminatı olduğunu vurğulayan nazir Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin nailiyyətlərini qeyd edib. O, əmək, məşğulluq və sosial müdafiə sahəsində ölkəmizdə aparılan son islahatları, e-texnologiyaların bu sahədə geniş tətbiqi işlərini diqqətə çatdırıb. DOST layihəsi, sosial ödənişlərdə artım dinamikası, pandemiya dövründə reallaşdırılan iqtisadi-sosial dəstək tədbirləri barədə məlumat verib. Bu tədbirlər sırasında sosial təminat növləri üzrə ödənişlərin davamlılığının da təmin edildiyini bildirib.

Y.Bröyer BSTA-nın Azərbaycanda sosial sahədə aparılan islahatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirdiyini vurğulayıb. O, pandemiya dövründə sosial təminatın əhalinin rifahında önəminin daha aydın şəkildə özünü göstərdiyini deyib. Ölkəmizdə də bu sahəyə xüsusi diqqət göstərilməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Y.Bröyer həmçinin ölkəmizin islahatlar prosesində BSTA ilə mütəmadi əməkdaşlığını yüksək qiymətləndirib. Görüşdə ötən ilin may ayında BSTA-nın Avropa Regional Forumunun Bakıda yüksək səviyyədə keçirilməsindən razılıq ifadə olunub. Həmçinin Azərbaycanın dörd layihəsinin (özünüməşğulluq proqramı, ünvanlı sosial yardım və əlillik təyinatü zrə e-sistemlər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması tədbirləri) BSTA-nın xüsusi mükafat və təltiflərə layiq görülməsindən bəhs olunub. Bu layihələr üzrə davam edən işlər qeyd edilib.

***Nigar Məmmədova***

## ABŞ-ın ÜST-dən ayrılacağı tarix məlum olub



Amerika Birləşmiş Ştatlarının (ABŞ) Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) ayrılacağı tarix məlum olub. SİA-nın məlumatına görə, bununla bağlı ABŞ-ın Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə ofisindəki daimi nümayəndəliyi bəyanat yayıb. Bəyanatda bildirilib ki, ABŞ 2021-ci ilin 6 iyul tarixində ÜST-dən ayrılacaq. Səbəb kimi ÜST-ün yeni tip koronavirusa (COVID-19) və digər qlobal böhranlara qarşı tədbirlər görə bilməsi göstərilir.

## "PAST": "Paşinyanın uğursuz kadr siyasəti davam edəcək"

Ermənistan KİV-ləri baş nazir Nikol Paşinyanın kadr siyasətini atəşə tutub. SİA xəbər verir ki, ölkənin "Past" qəzetinin yazdığına görə, sərt tənqidçilərin bir çoxu Ermənistanın baş nazirinin hakimiyyətdəki kadr siyasətini hədəfə almaqla yanaşı, onun bu siyasətinin ölkəsini uçuruma doğru apardığını qeyd edirlər. Digər tərəfdən, Paşinyan uğursuz kadr siyasətini ört-basdır etmək üçün davamlı olaraq nazir və qubernatorları tənqid edir, onların əlavə "baş ağrıları" olduqlarını deyir, özünün hamının yerinə işlədiyini bildirir. Adıçəkilən qəzet mənbələrinə istinadən yazır ki, yaxın vaxtlarda hökumət heyətində ciddi dəyişikliklərə gediləcək və bu dəyişikliklər konkret olaraq bir neçə həlledici nazirlərə də aid olunacaq. "Mənbələrin dediklərinə görə, hökumətdə qısa müddət ərzində 2-3 nazir öz kreslosu ilə vidalaşmalı olacaq", deyə qeyd edilir.

# “Politik”: “Rusiya Paşinyanın şantajına getmədi”

## *“Paşinyan daxili xarakterli sualları həll etmək üçün şantaj yolundan istifadə edirsə, xarici siyasətdə bu vasitə onu gülünc vəziyyətə qoyur”*

***“Ermənistanın baş naziri Nikol Paşinyan rəhbərliyə başlayan andan ona qarşı müxalif olanlara qarşı yalnız bir alət tətbiq edib - şantaj”. SİA xəbər verir ki, bu barədə Ermənistanın “Politik” nəşri yazır. “Əgər Paşinyan daxili xarakterli sualları həll etmək üçün şantaj yolundan istifadə edirsə, xarici siyasətdə bu vasitə onu gülünc vəziyyətə qoyur”, qeyd edən erməni nəşri onu da yazır ki, hakimiyyətə yiyələnəndən sonra Nikol Paşinyan Rusiya Federasiyası hakimiyyəti ilə də şantaj dili ilə danışmağa cəhd göstərdi: “Hüquq-mühafizə orqanları “Rusiya Dəmir Yolları” ASC-nin qız şirkəti olan “Cənubi Qafqaz dəmir yolu” QSC-də “maski-şou” göstərdilər. Bu, rusları şantaj etmək cəhdi idi. Belə ki, Paşinyan ibtidai istintaqın başa çatmasını gözləmədən ruslara bağlı şirkətdə astronomik miqyasda qanunsuzluqların baş verməsi ilə bağlı bəyanat verdi”.***



### “Paşinyan mövcud məsələlərlə bağlı Rusiya hakimiyyəti ilə danışıqlara çıxmağa cəhd göstərdi”

Nəşr xatırladır ki, Ermənistanın baş naziri Nikol Paşinyan 2018-ci ilin sentyabrında Rusiyanın “Kommersant” qəzetinə verdiyi müsahibəsində bəyan etdi ki, “Rusiya Dəmir Yolları” ASC-nin qız şirkəti olan “Cənubi Qafqaz dəmir yolu” QSC-də 60 milyon dollarlıq pozuntular aşkar edilib. Bundan sonra isə, hökumət mediasında məlumat yayıldı ki, “Cənub-Qafqaz dəmir yolu” şirkətindəki pozuntuların miqyası 104 milyon dollara çatıb. SİTAT: “Paşinyan mövcud məsələlərlə bağlı Rusiya hakimiyyəti ilə danışıqlara çıxmağa cəhd göstərdi. Bundan istifadə edən baş nazir Rusiya Federasiyasından alınan qazın qiymətinin endirilməsinə nail olmaq istəyirdi. Bu məlumatı Rusiyanın xarici işlər naziri Sergey Lavrov da təsdiq edib. Bir neçə ay əvvəl keçirdiyi mətbuat konfransında Lavrov Ermənistana verilən qazın qiymətinin endirilməsi mümkünlüyünü şərh edib və Ermənistanda rus şirkətinə qarşı başladılan məhkəmə prosesinə də toxunub”.

### “Baş verənlərin fonunda Ermənistana verilən qazın qiyməti daha da artdı”

Nəşr Rusiya XİN-nin başçısının dediklərini də xatırladıb. “Mən bu barədə çox açıq danışıram, belə ki, rus şirkətləri çətin situasiyada qalıblar. Ümid edirəm ki, bütün bu məsələlər qarşılıqlı anlaşma prinsipində həll olunacaq”, Lavrov bəyan etmişdi. Bütün bunlardan sonra Rusiya və Ermənistan tərəflərinin yaranmış problemin həlli istiqamətində birgə iş apardıqlarını da xatırladan nəşr yazır ki, hər iki ölkənin müvafiq qurumları audit yoxlamalara başlayacaqlar və s.

“Amma baş verənlərin fonunda qeyd etmək lazımdır ki, Ermənistana verilən qazın qiyməti daha da artdı. Nəticədə ruslar Paşinyanın şantajına getmədilər, əksinə, Ermənistanın baş naziri anladı ki, partnyor ölkələrlə şantaj dilində danışmaq əbəs məşğuliyyətdir. Bütün bunların təhlilini apararkən açıq-aşkar görünür ki, Paşinyanın 60 milyonluq pozuntular haqqında verdiyi bəyanatları da yalan imiş”, deyə erməni saytı sonda qeyd edir.

# “Sərsəng Su Anbarı ilə bağlı sənədin yerinə yetirilməsini tələb edirik”

“Çox təəssüf ki, Avropa Şurası Parlament Assambleyası üzərinə düşən öhdəlikləri yerinə yetirmir. AŞPA-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə sənəd də qəbul olunub. Amma bu sənədlərin hamısı, çox təəssüf ki, kağız üzərində qalıb. Bu sənədlərdən biri də Sərsəng Su Anbarı ilə bağlıdır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.



Mərkəzin rəhbərinin sözlərinə görə, Sərsəng Su Anbarı işğal altındadır və əslində, çox böyük rezervlərə malik su anbarıdır ki, Azərbaycan ondan istifadə edə bilmir.

“Erməni separatçıları öz düşüncələrinə görə, bir ara hiyləgər bir gediş etdilər, belə bir fikir ortaya atdılar ki, guya əgər Azərbaycan istəyərsə, bu su anbarından birgə istifadə etmək mümkündür. Bu hiyləgər gediş ondan ibarətdir ki, əgər biz buna razılaşsaq, faktiki olaraq biz separatçılarla əməkdaşlığa razılaşmış olacaqdıq. Amma biz tam əminliklə deyirik ki, Dağlıq Qarabağ və ətraf rayonlarını Ermənistanın hərbi qüvvələri işğal edib. Sadəcə, Dağlıq Qarabağ separatçıları orada idarəetmə qururlar və əsasən Ermənistandan asılıdırlar. Ona görə, biz belə bir hiyləyə gedə bilməzdik. Biz Sərsəng Su Anbarının və ətraf rayonların tam azad olunmasını tələb edirik. Biz Avropa Şurası Parlament Assambleyasının sənədlərini, o cümlədən, Sərsəng Su Anbarı ilə bağlı sənədin yerinə yetirilməsini tələb edirik və ona görə də Dağlıq Qarabağın Azərbaycan İcmasının bu məsələ ilə bağlı AŞPA-ya müraciət etməsi doğrudur. AŞPA rəhbərliyi münasibət bildirsinlər məsələyə ki, özlərinin qəbul etdiyi bu sənədin icrası niyə tələb olunmur. Deməli onlar işğalla barışırlar. Necə ki, ATƏT-in Minsk Qrupu faydasız fəaliyyət göstərir, özünün hazırladığı planı, o cümlədən genişləndirilmiş Madrid Planını işğalçı dövlətə qəbul etdirmək istəmir, bacarmır, eləcə də AŞPA belə çıxır ki, özünün qəbul etdiyi sənədləri hansısa dövlətlərə qəbul etdirmək istəmir, bacarmır. Bircə dəfə AŞPA rəhbərliyi təəssüflər olsun, Ermənistana müraciət edib deməyib ki, siz nədən Sərsəng Su Anbarı ilə bağlı qəbul olunan sənədin icrasını təmin etmirsiz. O məsələ həll olunsa, əslində bu o deməkdir ki, mərhələli həll planı işə düşəcək. Amma bölgədə müharibə riski artır. Bunu hamı görür, hamı hiss edir. Çünki, danışıqlar nəticə vermir. Çünki AŞPA özünün qəbul etdiyi sənədləri işğalçıya qəbul etdirmək istəmir. Bir tərəfdən deyirlər ki, müharibə olmasın, sülh olsun, amma belə şəraitdə sülh ola bilməz. İşğal davam edirsə, Sərsəng Su Anbarı hələ də işğal altındadırsa və azərbaycanlılar o anbardan istifadə edə bilmirlərsə, biz buna seyrçi qala bilmərik, qətiyyətli addımlar atacağıq. Dövlət başçısı Cənab İlham Əliyev də açıqlamalarında bildirir ki, biz yekun həllə hazırlaşırıq. Yekun həllin isə nədən ibarət olduğunu işğalçı dövlət və məncə, AŞPA rəhbərliyi də aydın təsəvvür edirlər”, deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***



# “Ermənilərin işğal olunmuş torpaqlara köçürülməsi hərbi cinayətdir”

“Bir dövlətin başqa bir dövlətin ərazilərini işğal etdikdən sonra həmin ərazilərdən yerli əhalini deportasiya etməsi, həmçinin başqa əhali hesabına həmin ərazilərdə məskunlaşdırması beynəlxalq humanitar hüququn prinsiplərinə zidd və bu müharibə cinayətləri kateqoriyasına aiddir ki, bu da məsələnin hüquqi tərəfidir. Digər tərəfdən Ermənistan hazırda işğal olunmuş əraziləri öz əhalisi hesabına məskunlaşdırmaq imkanına malik deyil”. Bunu SİA-ya açıqlamasında siyasi ekspert Sahib Məmmədov deyib.

Ekspert bildirib ki, ermənilər orada bir-iki yol çəkməklə görüntü yaratmaq istəyir: “Kəlbəcər kimi bir ərazinin bütün infrastrukturunun işləməsi üçün təxmini 70 min əhali lazımdır. Ermənistanın öz ərazisində isə əhali günü-gündən azalmağa davam edir. Bunlar da bu cür fürsətdən istifadə edərək başqa ərazilərdə olan erməniləri Qarabağ ərazisində məskunlaşdırmağa cəhd edirlər. Təbii ki, istədikləri sayda erməni tapa bilməsələr də, qismən buna nail olurlar. İndi də Livanda siyasi-iqtisadi kataklizmlər tez-tez yaşanır, indi də texnogen bir qəza baş verib və bunun nəticəsində orada çətin vəziyyətə düşən erməniləri xaricdə yaşayan ermənilərin maliyyə dəstəklərilə şirnikləşdirici vədlər verib Qarabağ ərazisinə köçürmək istəyirlər”.

S.Məmmədov vurğulayıb ki, bütün bunlar bir daha göstərir ki, Ermənistanın işğalçı niyyətindən əl çəkmək fikri yoxdur: “Sülh danışıqları ermənilər üçün vaxt uzatmaqdan başqa bir şey deyil. Ölkədən kənarda yaşayan ermənilər müəyyən qədər bu vədlərə inanırlar, lakin Ermənistan ərazisində yaşayan ermənilər isə Qarabağa köçmək istəmirlər. Xüsusilə Aprel döyüşlərindən sonra işğal olunmuş torpaqlarda məskunlaşan ermənilər anladılar ki, heç də orada rahat yaşaya bilməyəcəklər. Onlar yaxşı bilirlər ki, intensiv döyüşlər başlasa və Azərbaycan öz ərazilərini işğaldan azad etmək planını tətbiq etsə, mülkü əhali döyüş zonasında qalacaq. Qondarma rejimin aldadıcı vədlərlə ora erməniləri cəlb etməyə çalışması sadəcə olaraq hərbi cinayətdir”.

***Aysel Məmmədova***

# "Demokratiya" zombiləri...

## *İsmayıl Cəlilov: "AXCP trolları çox pis, tərbiyəsiz cinayətkarlar sürüsüdür"*

***Bu gün Avropada mühacir həyatı yaşayan İsmayıl Cəlilovla AXCP sədri Əli Kərimli arasında ziddiyyətlər səngimir. Xüsusilə də, İ.Cəlilovun "AXCP trolları çox pis, tərbiyəsiz cinayətkarlar sürüsüdür" deməsi bir yana, yenidən Əli Kərimlinin söyüş söyəninə "eşşək anqırar tayını tapar" cavbından "od tutub". Ən başlıcası isə. İ.Cəlilov Əli Kərimlinin bu günə kimi, hələ belə "yuyub sərməmişdi".***



İ.Cəlilov Ə.Kərimlinin yan-yörəsinin tərbiyəsiz çoban olduğunu da bildirib: "Deyirəm ki, Kərimli utanmırmı? Görün ətrafında kimlər var. Mənə yazır məsləhət görürlər ki, bu mundarlarla işin olmasın. Başa düşürəm. Amma bilirsiz niyə paylaşıram? Əli Kərimlinin yan-yörəsində kimlər var, biləsiz deyə. Bunlar hamısı, tərbiyəsiz, çobana ehtiyacı olan əsl cinayətkarlar sürüsüdür".

### "Əli Kərimlinin "demokrat" ideyalarına tüpürmək belə istəmirəm"

İ.Cəlilov bu sözü ilə Ə.kərimlinin lap... yandırdı. Bildirib ki, Əli Kərimli kimi mənəviyyatını itirmiş əxlaqsızın "demokrat" ideyalarına tüpürmək belə istəmirəm: "Əli Kərimli və ətrafı bisavad "ölü canlar" olanlar məzarlığa çevrilmiş satqınlardır. Əllərinə kiçik imkan düşərsə, maskaları yırtılır, kim olduqları dərhal aşkarlanır. AXCP sədri Əli Kərimli əsl şeytan, iblis olmaqla yanaşı kənar güclərin əlində marionetdir. AXCP trolları çox pis, tərbiyəsiz insanlardır. tərəfdarları çobana ehtiyacı olan sürüdür. Əli Kərimli "Əlinin papağını Vəlinin başına qoyaraq papaqsız qaldıqlarının fərqinə varmayaraq az qala kafeşantan məzhəkəsi yaradırlar. Və AXCP sədri onun maraqlarına cavab verən, mənafelərini təmin edən istənilən adamı çox asanlıqla "mübariz", "siyasi məhbus" elan etməyə həmişə hazırdır. Sadalanan və hələ sadalamadığımız səbəblərdən Əli Kərimlinin ətrafında müstəqil, AXCP sədrinin volüntarist kursundan fərqli düşünən kimsə qalmayıb. Belə adamların hamısı ya partiyanı tərk edib, ya qovulub. AXCP sədrinin yaxın ətrafındakıların total əksəriyyəti siyasi reneqatlar, "demokratiya zombiləri"dir. Bir məqamı da deyim ki, Əli Kərimlinin absurd iddialarının əksinə olaraq, təcrübə göstərir ki, Qərb Ermənistanı təkcə Paşinyan hakimiyyətə gələndən sonra yox, həmişə dəstəkləyib. Qeyd edilən "907-ci düzəliş" də Ə.Kərimlinin təmsil olunduğu hakimiyyətin dövründə Azərbaycana tətbiq olunub. Əli Kərimli fəaliyyətinin və iddialarının iki mənbəyi var: xarici sifariş və şəxsi mənafe. Əli Kərimlinin bütün siyasi bioqrafiyası Azərbaycan dövləti və xalqı ilə düşmənçilik üzərində qurulub. Ölkəsinə və millətinə az qala düşmən kəsilən, "Xalqım!" deyərək sosial şəbəkələrdə bloqerliyə partiya sədrliyindən tənəzzül etmiş bu adam çətin anlasın...".

Ə.Kərimlinin təmsil olunduğu hakimiyyətin ardıcıl səhvlərinin, naşılığının nəticəsi idi ki 1990-cı illərin əvvəllərində Azərbaycan ciddi problemlərlə üz-üzə qalmışdı. Ölkə daxilində anarxiya və xaos, vətəndaş qarşıdurması, özbaşına silahlı dəstələrin hökmranlığı, iqtisadiyyatın talan olunması, Ermənistanın təcavüzünə və torpaqlarımızın işğalına baxmayaraq, ölkəmizə qarşı sarksiyaların tətbiq edilməsi məhz siyasətdən uzaq və mağara təfəkkürlü şəxslərin idarəçiliyinin acı nəticələri idi.

Ə.Kərimli dövlət katibi postu tutduğundan sonra Dağlıq Qarabağa münaqişəsi ilə bağlı vahid konsepsiyanın hazırlanması da daxil olmaqla xarici siyasət sahəsi ona həvalə olunmuşdu. Amma bəzi daha mühüm işlərə - məsələn, "Moskva" və "Naxçıvan" mehmanxanalarının satışının tənzimlənməsinə qarşan dövlət katibi öz fəaliyyəti ilə sübut etdi ki, onun şəxsi maraqları ən ümdə ümummilli problemizdən də üstündür.

1999-cu ildə Qarabağla bağlı birləşmiş müxalifətin keçirəcəyi mitinq də Əli Kərimlinin ABŞ səfirliyindən böyük miqdarda pul almasından sonra ləğv edilmişdi.

Əli Kərimli Brüsselə son səfəri zamanı iddia edib ki, Azərbaycanın indiki iqtidarının hakimiyyətdə qalması sülhə təhlükədir. Yalnız Ermənistanda və Azərbaycanda demokratik qüvvələrin hakimiyyətə gəlməsi problemin sülh yolu ilə həllini təmin edə bilər. Onun məntiqindən belə görünür ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda yaşayan ermənilərin hüquqlarının pozulması nəticəsində başlayıb. Əli Kərimli hətta ən qatı erməni milliyyətçilərinin demədiyini də deyir, onlara öz iddialarını möhkəmləndirmək üçün əsas verir.

Əgər bu münaqişə hər iki ölkədə demokratiyanın bərqərar olması nəticəsində həll edilə bilərsə, onda Kərimli necə izah edə bilər ki, bu münaqişə onların "demokratik prezident" adlandırdıqları Əbülfəz Elçibəy və Qərbin hakimiyyətə gətirdiyi Levon Ter Petrosyanın vaxtında pik həddə çatıb. O zaman onlar niyə problemi danışıqlar yolu ilə həll etməyiblər?! Əli Kərimlinin absurd iddialarının əksinə olaraq, təcrübə göstərir ki, Qərb Ermənistanı təkcə Paşinyan hakimiyyətə gələndən sonra yox, həmişə dəstəkləyib. Qeyd edilən 907-ci düzəliş də Ə.Kərimlinin mənsub olduğu hakimiyyətin dövründə Azərbaycana tətbiq olunub.

Ermənistanda "məxməri inqilab" başlayan zaman Əli Kərimli israrla Azərbaycan hakimiyyətini Qarabağda müharibəyə başlamağa çağırırdı. Amma Keşikçi Dağ məsələsində bizim hərbçiləri cəsarətsizlikdə ittiham etdi. Bu məntiqsizlik göstərir ki, Əli Kərimli fəaliyyətinin və iddialarının iki mənbəyi var: xarici sifariş və şəxsi mənafe.

Əli Kərimlinin bütün siyasi bioqrafiyası Azərbaycan dövləti və xalqı ilə düşmənçilik üzərində qurulub. O, şəxi maraqlarını reallaşdırmaq üçün təmsil olunduğu hakimiyyətin laxladılmasından, ictimaiyyət arasında Elçibəyin gözdən salınmasından, onun ətrafının partiyadan uzaqlaşdırılmasından, gənclərin zombiləşdirilməsindən və digər bu kimi addımlardan çəkinməyib. 27 ildir ki, uçurumun dibində olan Ə.Kərimli bu gün görəsən hansı "ağıl" və "düşüncə" ilə yol göstərir? Belə adamın göstərdiyi yolsa sadəcə, uçuruma aparan cığır ola bilər.

Ölkəsinə və millətinə az qala düşmən kəsilən, "Xalqım!" deyərək sosial şəbəkələrdə bloqerliyə partiya sədrliyindən tənəzzül etmiş bu adam çətin anlasın...

### Xəyanət xəyanəti gətirər prinsipi Kərimlinin siyasi kimliyinə artıq son qoyub

Ancaq Əli Kərimli bilməlidir ki, xalqın, dövlətin qarşısında onu qorxusu böyükdür. Haqqdan, bəzi məqamları xatırlatmaq istərdik. Yadındarsa, sən dövlət katibi olduğu dönəmdə daxili işlər naziri İsgəndər Həmidov "İstiqlal" qəzetinin baş redaktoru Zərdüşt Əlizadəni kabinetində döyüb, külqabını başına çırpmış, daha sonra qəzeti bir nüsxəsini ona yedirtmişdi. Əbülfəz Elçibəy nə qədər təkid etsə də, İsgəndər Həmidov jurnalistdən üzr istəmədi. Nazirə gücü çatmayan Əbülfəz Elçibəy əlacsız qalıb Zərdüşt Əlizadədən özü üzr istədi. Hətta İsgəndər Həmidov qəzetin nömrəsini ona yedirtmişdi də.

Belə hadisələr bir deyil, iki deyil. Və bu gün Ə.Kərimli nəyə əsaslanıb "ədalətdən, qanundan" danışırsan? Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlətdir. Siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Əlbəttə ki, bu Azərbaycan dövlətinin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin və dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir.

Ona görə də, ermənixislətli satqın, əxlaqsız Ə.Kərimli bir faktı yüz müstəviyə inikas etdirib siyasiləşdirmək, məntiq eybəcərliyini ədalət axtarışı kimi qələmə verməklə sənin vicdansız, cinayətkar və satqın olduğunu sübuta yetirir. Və bu kimi sosial şəbəkələrdə avantürist çıxışlarınla "aydan arı, sudan durru" olduğunu göstərməyə çalışma!. Etdiyin xainlik tarixin heç vaxt unudulmayıb, Yaxın zamanlarda etdiyin cinayətlərin qanun və xalq qarşısında cəzasını çəkəcəksən! Və çağırışlarınız da küt baltalar kimi, nəticəsiz olacaq.

Bir sözlə, bu gün AXCP trolları necə davranırlarsa, dünən də elə olub, sabah da bu cür davam edəcək, əlbəttə ki, AXCP düşdüyü iflas burulğanından xilas olmağa macal taparsa...

**Rəfiqə HÜSEYNOVA**

## Mikael Melkumyan: "Doğrudanmı ölkəmizdəki insan bu qədər qorunmur?"



Ermənistanda araqdan zəhərlənmə və ölüm halları artıb. Spirtli içkini satan şəxs bunu gizli etməyib, illərlə bu işlə məşğul olub. SİA xəbər verir ki, bu sözləri "Çiçəklənən Ermənistan" fraksiyasından Milli Məclisin deputatı Mikael Melkumyan Facebook səhifəsində yazıb. "Ağrı və dərin narahatlıqla on bir soydaşımızın araqdan zəhərlənərək öldüyünü öyrəndim. Bu arağın daha 180 şüşə satıldığını da öyrəndim. Bu biabırçı bir fenomendir. Ölümlərə səbəb olan arağı satan adam bunu gizli etməyib, illərlə edib. İndi bu ölümlərə görə kim cavabdeh olmalıdır? Burada qida təhlükəsizliyi xidməti, bələdiyyə və digər dövlət qurumları üçün həqiqətən məşğul olunacaq bir iş yoxdur? Yenə deyirəm, on bir vətəndaşımızın ölümündən danışırıq. Doğrudanmı ölkəmizdəki insan bu qədər qorunmur? Və belədirsə, bu nə deməkdir? Bu vəziyyətə dözməliyikmi? Bu, dövlət, icma idarəçiliyi və nəzarəti sahəsindəki ümumi razılığın vəziyyətindən xəbər verir. Bu vəziyyət çox tez bir zamanda düzəldilməlidir. Təəssüf ki, bu cür acınacaqlı nəticələr deməək olar ki, həmişə qurbanların ailələrinin və ya yaxınlarının çiyinlərinə düşür. Bu laqeydliyi çox tez aradan qaldırmalıyıq", deyə Mikael Melkumyan öz səhifəsində yazıb.

## Avstriya Baş naziri: "Ərdoğana və Türkiyəyə təslim olsaq..."

Yunanıstan Türkiyə qarşısında tək buraxılmamalıdır. SİA-nın məlumatına görə, bu sözləri Avstriya Baş naziri Sebastian Kurts deyib. "Prezident Ərdoğana və Türkiyəyə təslim olsaq, o zaman gecən xeyirə, Avropa..." - deyə baş nazir bildirib. O, bildirib ki, Avropa İttifaqı (Aİ) bu məsələdə Ərdoğana imkan verməməlidir.

**Aysel Məmmədova**

## Abbasdan ABŞ-a etiraz: "O masaya oturmayacağıq"



Fələstin Prezidenti Mahmud Abbas ABŞ-ın elan etdiyi "Yüz ilin anlaşması" planına qarşı çıxdığını və bu müqavilə əsasında heç bir danışıqlar masasına oturmayacağını bildirib. O həmçinin, heç kəsin Fələstinin adından danışmağa haqqının olmadığını deyib. M.Abbas BMT-nin təşəbbüsü ilə İsrail ilə görüşməyə hazır olduqlarını bildirərək ilhaqı qəbul edənləri vətən xaini elan etdiyini vurğulayıb. O, ərəb ölkələrinə Fələstinə kömək etməmələri üçün təzyiq göstərildiyini söyləyib. 1948-ci il hadisələrinin təkrarlanmayacağını deyən Abbas parçalanmaya son qoymaq üçün Fəth və Həmas hərəkatlarını da dialoqa çağırıb./Publika.az

# Azərbaycançılığın milli ideologiyaya çevrilməsi

***Azərbaycançılığın bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Ana Vətənlə əlaqəsi olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik simvoluna, milli ideologiyasına çevrilməsi və Azərbaycan Respublikasında rəsmi dövlət quruculuğu praktikasında həyata keçirilməsi 1993-cü ildən başlanır. Məhz bu dövrdən başlayaraq azərbaycançılıq etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyərlərlə yanaşı, sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sistemi kimi milli dövlət quruculuğunun ayrılmaz komponentinə çevrilir.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti çərçivəsində hazırlanıb.*

Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi, azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının birlik və həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün dünyada yaşayan azərbaycanlıların iştirakı ilə keçirilən mərasimlər, xarici səfərləri zamanı Azərbaycan diasporası ilə keçirdiyi görüşlər, Dünya Azərbaycanlılarının Bakıda keçirilən birinci qurultayı və bu səpkili yüzlərlə mühüm işlər Azərbaycan Prezidenti Heydər Əliyevin 1993-cü ildən sonra həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bütün bu işlər dünyada yaşayan azərbaycanlıların milli şüurunun, milli özünüdərkinin güclənməsinə, onların azərbaycan dilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, dövlətçiliyinə münasibətinin daha da doğmalaşmasına öz müsbət təsirini göstərmişdir.

Beləliklə, biz 1993-cü ildən başlayaraq milli ideologiyanın - azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar səviyyəsində formalaşmasının və tətbiq olunmasının şahidləriyik. Keçən illərdə azərbaycançılıq ideologiyası həm milli dövlət quruculuğu strategiyasının ideya-siyasi əsası kimi praktikada tətbiq olunur, həm düşüncə adamlarının, ziyalıların, milli elitanın düşüncələrinə hakim kəsilib, həm də bütün dövlət hüdudunda kütləvi milli məfkurəyə çevrilib.

Beləliklə, azərbaycançılıq ideyasının milli ideologiya və ədəbi-estetik təlim kimi qısa tehlili bir daha göstərir ki, hələ qədim zamanlardan xalqımızın ictimai fikir dünyasına hakim kəsilmiş bu ideya zaman-zaman öz səfərbəredici və birləşdirici rolunu oynamış və indi də oynamaqdadır. Bu təlim bütün bəhs olunan dövrdə həm formalaşmış, milyonlarla azərbaycanlının fikir və həyatına daxil olmuş, həm də elmi - nəzəri və ictimai-siyasi cəhətdən öyrənilmiş, tədqiq və tətbiq olunmuşdur. Sözsüz ki, qeyd olunan araşdırmalar hələlik azərbaycançılığın bütöv, tam bir ictimai-siyasi təlim kimi, vahid baxış və görüşlər sistemi kimi elmi-akademik həllini tapması üçün kifayət deyildir. Lakin bir şey artıq hamıya aydındır. Azərbaycançılıq müasir dövrümüzün dünya inteqrasiyası və qloballaşma kimi aparıcı tendensiyaları nizamında Azərbaycanın məxsusi iqtisadi, siyasi, mədəni-mənəvi dəyərlərə malik bir dövlət kimi öz yerini müəyyənləşdirməsinə və gələcəkdə planetimizin yüksək inkişaf etmiş dövlətlərindən birinə çevrilməsinə geniş imkanlar açır.

Azərbaycançılıq ideologiyasının fəlsəfi təlim kimi sistemə salınması və müstəqil Azərbaycan dövlətçiliyinə tətbiqi dövlət idarəçiliyində zəngin təcrübəsi olan böyük şəxsiyyətin tarixi xidmətidir. Böyük nəzəri-tarixi ənənələri olsa da, azərbaycançılıq yeni siyasi dövrün ifadəsi, yeni təfəkkür mərhələsinin fəlsəfəsi kimi formalaşmışdır.

Heydər Əliyevin yeni tarixi dövrdə - 15 iyun 1993-cü ildən etibarən apardığı müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında məhz azərbaycançılıq ideologiyası dayanırdı. Müdrik şəxsiyyətin ideyalarının əzmkar davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasətin tarixi rolundan bəhs edərkən demişdir: "Azərbaycan rəhbərliyinin apardığı siyasət yeganə düzgün siyasətdir. Bunu həyat da sübut etmişdir. Azərbaycan çox böhranlardan şərəflə çıxmışdır. Vətəndaş müharibəsi və cəmiyyətin parçalanması təhlükəsindən qurtarmışdır. İndi Azərbaycanda sabitlikdir, güclü iqtisadiyyat vardır, demokratikləşdirmə yolunda çox işlər görülür. Buna görə də mən qəti əminəm ki, hazırda yeridilən xətt davam etdirilməlidir... İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda, Azərbaycan yenə də hansısa hərc-mərcliyə məruz qala bilər". Bu sətirlərdə Heydər Əliyev siyasətinə, onun ideologiyasına qüvvətli inam və İlham Əliyevin qalibiyyət əzmi ifadə olunur. Bu gün bütün dünyada azərbaycançılığın ən böyük qarantı Azərbaycanın və hər bir azərbaycanlının Prezidenti İlham Əliyevdir.

Böyük dövlət xadimi çətin tarixi-siyasi situasiyalardan asanlıqla baş çıxaran, polad kimi möhkəm siyasi iradəyə malik lider, tarixin gedişatını öncədən görməyi və istiqamətləndirməyi bacaran böyük strateq idi. O, Azərbaycan xalqı və müstəqil dövlətçiliyimiz üçün zəngin nəzəri irs və qüdrətli tarixi təcrübə, idarəçilik təcrübəsi qoyub getmişdir. Onun dərin məzmunlu tarixi irsində Azərbaycana bağlanmayan, Azərbaycanın milli və tarixi taleyini əks etdirməyən bir fikir belə tapmaq mümkün deyil. Çünki azərbaycançılıq onun təkcə əməllərində deyil, qəlbində və zəkasında, onun içində - daxili-mənəvi varlığında, əzəmətli şəxsiyyətində idi.

Zaman keçdikcə ümummilli lider Heydər Əliyevin şəxsiyyəti daha möhtəşəm görünür, qoca tarix inadkar bir inamla onun cahanşümul əməllərini, dövlətçilik ideallarını və azərbaycançılıq nəzəriyyəsini təsbit edir.

Azərbaycan xalqının bütöv bir etnik vahid kimi formalaşmasında əsrlər boyu baş verən inteqrasiya prosesinin əhəmiyyəti nə qədər böyükdürsə, danılmazdırsa, onun sonrakı mərhələlərdə qorunub saxlanılması da xalqın bütövlüyü və mütəşəkkilliyi baxımından o qədər əhəmiyyətlidir. Bütölükdə, bir ərazidə yaşayan etnik təbəqə üçün vəhdət yarada bilmək imkanları heç bir dövrdə qapalı olmamışdır. Xalqın etnik potensialının genişlənməsində bu proses, əslində, əvvəlki dövrlərə məxsus ənənənin davamı kimi öz ardıcıllığını qoruyub saxlamışdır. Müstəqil dövlətçilik mərhələsində isə milli birliyin qorunmasına xidmət edən bu vəhdət çox böyük sosial, siyasi və ideoloji əhəmiyyət daşıyır.

Azərbaycançılıq ideyaları müstəqil dövlətçilik mərhələsində milli xarakter daşıdığı üçün onu dövlətçilikdən ayrı təsəvvür etmək olmaz. Nəzərə almaq lazımdır ki, milli ideyalar məhz dövlətçiliklə qorunur. Dövlətçilik olmadan milli ideyaları qoruyub saxlamaq və davam etdirmək, onu milli şüura çevirmək mümkün deyildir.

. Azərbaycanlı obrazı örnəkdir. Həm Azərbaycan cəmiyyəti üçün, həm də bu ölkəyə və onun əhalisinə xalqına, millətinə maraq göstərənlər üçün. Azərbaycanlı obrazı beynəlxalq aləmdə Azərbaycana və azərbaycanlılara münasibəti formalaşdırır. Ölkənin, xalqın və millətin tanınmasında nümunəvi azərbaycanlı obrazı ən mühüm informasiya subyekti kimi diqqətəlayiqdir. Belə ki, məsələn, beynəlxalq aləmdə Azərbaycan haqqındakı informasiyalarda Nizami, Füzuli, Nəsimi, Tusi, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov kimi dahi şəxsiyyətlər yada düşür. Belə şəxsiyyətlər cəmiyyətin güzgüsüdür. Onlar fikir və ideya dahiləridir. Azərbaycanda cəmiyyəti öz arxasınca aparmağa qadir olan bir çox şəxsiyyətlər, dövlət xadimləri və sərkərdələr də yetişərək illərin, əsrlərin xatirəsində əbədi obraz yaratmışlar. Azərbaycan cəmiyyətinə müstəqil dövlətçilik quruculuğu bəxş etmiş şəxsiyyət kimi Heydər Əliyevin obrazı daha parlaqdır. Bu obrazın parlaq işığı əsrləri və minillikləri keçib yaşayacaqdır.

Heydər Əliyevin parlaq azərbaycanlı obrazında cəsarətlilik, təşəbbüskarlıq, yorulmazlıq, mərdlik, dəyanətlilik, uzaqgörənlik, hadisələri qabaqlamaq məharəti, dövlətə, xalqa sədaqət, milli mənafeyi uca tutmaq kimi keyfiyyətlər ümumiləşmişdir.

***Vahid Ömərov f.ü.f.d.dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

5 sentyabr

Son səhifə

# “Marca”: “Messi “Barselona”da qalacaq”



***Komandadan ayrılacağı gözlənilən “Barselona”nın kapitanı Lionel Messi Kataloniya klubunda qala bilər. SİA xəbər verir ki, bu barədə “Marca” məlumat yayıb. Argentinalı hücumçunun komandanı tərk etmək fikrindən daşındığı və daha bir il “Barselona”da qalmaq qərarına gəldiyi bildirilir.***

Qeyd olunub ki, 33 yaşlı futbolçunun qərarının dəyişməsinin səbəbi “Barselona”nın sərt mövqe ortaya qoymasıdır. Klub prezidenti Xosep Bartomeu Messinin atası Xorxe Messi ilə görüşündə oğlunun müqaviləsinin olduğunu və onu buraxmaq niyyətində olmadıqlarını qəti şəkildə bildirib.

İndiki halda isə Messi klubdan ayrılmaq üçün yalnız məhkəməyə müraciət edə bilər. Lakin futbolçunun bu seçimdən istifadə edəcəyi gözlənilmir. “Marca” yazır ki, Messi qalmaqallı şəkildə “Barselona”dan ayrılan komanda yoldaşı Neymarın addımını təkrarlamaq istəmir. Ötən gün isə Messinin atası və meneceri olan Xorxe Messi oğlunun komandada qala biləcəyini açıqlayıb. Xatırladaq ki, “Barselona”nın yetirməsi olan Messinin “Mançester Siti”yə keçəcəyi haqda xəbərlər yayılıb.

# İspaniya yığmasından yeni rekord



**UEFA Millətlər Liqasının birinci turunda Almaniya ilə 1:1 hesabı ilə heç-heçə edən İspaniya yığması rekorda imza atıb. SİA xarici KİV-lərə istinadla xəbər verir ki, matçın 90+5-ci dəqiqəsində Xose Qayanın qolu ilə məğlubiyyətdən xilas olan ispanlar ardıcıl 41 oyundur ki, meydanı qolsuz tərk etmirlər. Bu, milli komandalar arasında rekord göstəricidir. İspaniya millisi sonuncu dəfə “Avro-2016”nın səkkizdəbir final mərhələsində İtaliya ilə oyunda (0:2) qol vura bilməyib.**

# UEFA üç komandamızın hər birinə 240 min avro ayırıb



Avropa Liqasının seçmə mərhələsində çıxış edən klublar üçün UEFA tərəfindən ayrılmış müvafiq vəsait AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb. SİA xəbər verir ki, Azərbaycan klublarından “Neftçi”, “Keşlə” və “Sumqayıt” hər biri 240 min avro əldə edib. Qeyd: “Keşlə” klubu üçün ayrılmış maliyyə vəsaiti mövsümün birinci və ikinci yarısı nəzərdə tutulmaqla klubun cari xərclərinin ödənilməsinə yönəldiləcək.

# Dünya hava yollarında sərnişin daşımaları tənəzzülə uğrayıb

**Bu ilin iyul ayında hava yollarındakı sərnişin daşımalarının həcmi ötən ilin müvafiq dövrünə nisbətən 79,6 faiz az olub. “Report” Beynəlxalq Hava Nəqliyyatı Asosiasiyasına (IATA) istinadən xəbər verir ki, iyun ayı üçün isə müvafiq göstərici 86,6 faiz olub. Bu da əsasən Çin və Rusiyada daxili daşımalarının kəskin azalması ilə bağlıdır.**



Sonradan Şengen ölkələri arasında gediş-gəlişin açılması Avropada beynəlxalq uçuşların artmasına gətirib çıxarsa da, qalan regionlarda mühüm dəyişikliklər olmayıb. İyul ayında sərnişin təyyarələrinin yüklənmə səviyyəsi tarixdən ən aşağı hədd olan 57,9faiz olub. Təyyarə uçuşlarına tələbatın hələ də cüzi olduğunu qeyd edən İATA baş katibiAleksanr de Juni-ak sərhədlərin açılıb-bağlanması, karantin tədbirlərinin yumşaldılaraq yenə sərtləşməsi üzündən hava nəqliyyatının müntəzəm fəaliyyəti üçün lazımi şəraitin olmadığını diqqətə çatdırıb.

Qeyd edək ki, beynəlxalq sərnişin daşımalarında iyun ayında illik 96,8 faiz, iyul ayında91,9 faiz, daxili daşımalarda isə müvafiq olaraq 68 və 57,5 faiz azalma qeydə alınıb. İyul ayında təyyarələrin yüklənmə səviyyəsi 46,4 faiz (ötən ilin müvafiq dövründə 85,3 faiz), o cümlədən daxili uçuşlarda 63,3 faiz (86,2 faiz) olub.

# Brilliant Dadaşova 370 min manatlıq bağ evini satışa çıxarıb



Xalq artisti Brilliant Dadaşova bağ evini satışa çıxarıb. SİA-nın məlumatına görə, buna səbəb müğənninin yeni villa tikdirməsi olub. Sənətçi aylardır satışa çıxardığı evinə hələ də müştəri tapa bilməyib. Dadaşova sözügedən bağ evini 370 min manata satır. Qeyd edək ki, B.Dadaşova hələ 2016-cı ildən bağını satışa çıxardığını demişdi. Həmin vaxt sənətçi bağa 200 min dollar qiymət qoymuşdu. O bildirib ki, Buzovna qəsəbəsində yerləşən evi atası Süleyman Dadaşov tikdirib.

# Göyçayda qadın özünü yandırdı



Göyçay rayonunda intihar hadisəsi baş verib. SİA xəbər verir ki, hadisə rayonun Çərəkə kəndində qeydə alınıb. Kənd sakini, 1964-cü il təvəllüdlü Qədirova Raya Zülfüqar qızı ailə münaqişəsi zamanı zəminində qızı, 1992-ci il təvəllüdlü Elgül Qədirova ilə aralarında baş verən dava zamanı öz üzərinə benzin tökərək bədəninə od vurub. Qadın ağır yanıq xəsarətləri aldığı üçün Göyçay rayon Mərkəzi Xəstəxanasına aparılıb. Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

Məlumata görə, iki uşaq anası Elgül Qədirova rayonun Xəlitli kəndinə gəlin köçüb və bu günlərdə həyat yoldaşından boşanacağı barədə anası Raya Qədirovaya məlumat verib. Raya Qədirova qızına boşanmamağı tövsiyə edib və boşanarsa, özünü yandıracağını bildirib. Buna inanmayan Elgül həyat yoldaşından ayrılaraq uşaqları ilə birgə anasının evinə gəldiyi üçün qadın özünə qəsd edib. Faktla bağlı Göyçay rayon Prokurorluğu tərəfindən araşdırma aparılıb.

## ELAN

**Bank “BTB” ASC-nin “Sənaye” filialınaməxsus, 28 fevral 2020-ci iltarixindəqeydiyyataalınmış, BTB-İP seriyalı, 001196 nömrəliipotekakağızitirilmişdir.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**